www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 14 avqust 2024-cü il Çərşənbə № 143 (8516) Qiymət 60 qəpik

Xəbər

## Nazirlikdəki yeyintiyə görə daha bir zabit həbs edildi

yazısı səh.2-də

Gündəm

### Ölkəmizə "dezo hücumu"




Ekspertlərə görə, bu təxribatlarla mübarizə üçün xüsusi idarə yaratmaq zamanıdır

yazısı səh.4-də

### KTMT - "Kollektiv müqavimətsizlik təşkilatı"

yazısı səh.6-da

### Şeyx Rusiyaya getdi

yazısı səh.3-də

### Türkiyəsiz NATO

yazısı səh.4-də

### Brüssel İrəvanı məyus etdi

yazısı səh.5-də

### İrəvana silah daşıyan ABŞ təyyarələrinin görüntüləri yayıldı

yazısı səh.6-da

### Ən gənc və yaşlı namizəd kimlərdir?

yazısı səh.7-də

### Alternativ hərbi xidmətlə bağlı ilginc iddialar

yazısı səh.10-da

### 60 min 933 kilometr sərhədini Rusiya necə qorusun?

yazısı səh.11-də

### Həbsdəki Saakaşvilini yenə "tutacaqlar"

yazısı səh.12-də

### Putin Kurskun xilasını ona tapşırdı

yazısı səh.11-də

### Cadugərlər Azərbaycanda milyonlar qazanır

yazısı səh.14-də

### "Şahdəniz"də gəlirlərin azalması büdcəyə necə təsir edəcək?

yazısı səh.15-də

# AZƏRBAYCAN YENİ TƏHLÜKƏSİZLİK FORMATINDA: "5+1"

Mərkəzi Asiya ölkələri böyük güclərin haqsız basqılarına birlikdə cavab verməyi ən doğru seçim hesab edirlər və bu sırada Azərbaycanı özləri ilə birlikdə görməkdən məmnundurlar

yazısı səh.9-da



# Ehsan qadağası yenidən gündəmdə

**Ekspertlərdən SOS!:** "Bunun yeganə yolu inzibati metoddur və..."

yazısı səh.3-də



*Eldar Namazov:*

### "Ermənistanın düşdüyü dalanın açarını cibimizə qoyuruq"

yazısı səh.5-də



### Kanada XİN rəhbəri Bakıdakı səfirini saymadı

yazısı səh.8-də



### Əraqçi nazir olarsa... - Bakıdan reaksiyalar

yazısı səh.12-də



## Fazil Mustafaya sui-qəsd işində qərar

**VI çağırış Milli Məclisin deputatı, Mədəniyyət komitəsinin sədri Fazil Mustafaya qarşı sui-qəsd cəhdində təqsirli bilinən şəxslərə hökm oxunub.**

Qərar Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Elnur Nuriyevin sədrliyi ilə keçirilən məhkəmə prosesdə elan edilib. Qərara əsasən, Azər Səricanov ömürlük, Səbuhi Şirinov 20 il, Rəşad Əhmədov 19 il, Elşad Əsgərov 18 il, Emin Əliyarov isə 4 il azadlıqdan məhrum edilib.

Xatırladaq ki, hadisə ötən il martın 28-də Sabunçu rayonu Zabrat qəsəbəsində baş verib. Milli Məclisin deputatı Mustafa Fazil Qəzənfər oğluna yaşadığı evin qarşısında "Kalaşnikov" avtomat silahından atəş açılaraq sui-qəsd cəhdi edilib.



## Rayonda dincəlmək bir ailəyə neçəyə başa gəlir?

**Yayın son həftələrini yaşayırıq. Lakin hələ də istirahətə gedə bilməyən ailələr var.**

Bəs 1 ailəyə rayonlarda dincəlmək neçəyə başa gəlir? Məsələ ilə bağlı Bakupost.az -a açıqlama verən **iqtisadçı ekspert Natiq Cəfərli** ayrı-ayrı rayonlarda qiymətlərin fərqli olduğunu bildirib.

Onun sözlərinə görə, 4 nəfərlik bir ailənin rayonlarda 1 həftəlik istirahəti 400 manata da, 500-ə də başa gələ bilər:

"Bu baxır, həmin ailə harada qalır, neçə dəfə qidalanır və s. Burada söhbət minimum xərclərdən gedir. Məsələn, 5 ulduzlu hoteldə qalsalar, orada minimum 2 nömrə götürməlidirlər. Hər nömrə ən azı 150 manatdır. 150 manatdan 2 otaq və 1 həftə qalmaq 2100 manat edir. Yeməkləri, yol xərclərini də əlavə etsək, ailənin xərcləri təxminən 4 min manatadək yüksələ bilər. Yəni adambaşı min manat. O qiymətə 4 nəfərlik bir ailə Türkiyənin istənilən kurortunda da dincələ bilər. Bu baxımdan, Azərbaycan rayonlarında qiymətlər kifayət qədər yüksəkdir".

**Turizm eksperti Ceyhun Aşurov isə bildirib ki, qiymətlər müxtəlifdir:** "Qeyri-mövsümdə kənd evləri 50 manat, bəzənsə daha aşağı idisə, artıq mövsümdə 100 manatdan başlayır. Elə villalar var ki, turistlərə 400-500 manata təklif olunur. Hotellərin qiyməti isə təxminən 100 manatdan başlayır. Hotellərin içərisində olan villaların kirayəsi də 400-500 manatdan başlayır. Buraya səhər yeməyi daxildir. İstənilən halda kənd evləri, ayrıca villalar bəzən adam sayına görə daha sərfəli olur. Daha çox adam geniş evlərdə, villalarda qaldığı üçün qiymətlər münasib olur".



## İlin populyar adları

**2024-cü ildə Azərbaycanda doğulmuş 748 qıza Zeynəb adı verilib. Ədliyyə Nazirliyinin açıqladığı statistikaya görə, populyar qız adlarının ilk onluğunda Zəhra (747 uşaq), Məryəm (735), Aylin (673), Ayla (666), Nilay (642), Melisa (627), Fatimə (571), İnci (556), Mələk (529) adları da var.**

Oğlan adları arasında Uğur birincidir: 1031 uşaq bu adı alıb. Qalan populyar oğlan adları belə sıralanır: Hüseyn (857 uşaq), Əli (836), Yusif (724), Raul (630), Ömər (527), Məhəmməd (452), Murad (450), Ayxan (409), Tunar (405).

# Nazirlikdəki yeyintiyə görə daha bir zabit həbs edildi



**Müdafiə Nazirliyindəki xüsusilə külli miqdarda yeyintiyə görə daha bir zabit həbs edilib.**

"Qafqazinfo" xəbər verir ki, MN-in N saylı korpusunun Maliyyə xidmət rəisi vəzifəsini icra edən Namiq Mirzəyev barəsində Səbayel Rayon Məhkəməsi tərəfindən həbs- qətimkan tədbiri seçilib.

Belə ki, Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həyata keçirilmiş əməliyyat tədbirləri zamanı Namiq Mirzəyevin Müdafiə Nazirliyində məlum maliyyə araşdırmaları və həbslərdən sonra da 2023-2024-cü illərdə eyni üsullarla xüsusilə külli miqdarda dövlət vəsaitini mənimsəmə əməllərini davam etdirdiyi məlum olub.

Qeyd edək ki, N.Mirzəyev bir müddət əvvəl Müdafiə Nazirliyindəki xüsusilə külli miqdarda mənimsəməyə görə həbs edilmiş Maliyyə-Büdcə İdarəsinin rəisi general-mayor Nizami Məmmədov və digərlərinin barəsində olan cinayət işi üzrə məhkəmədə şahid qismində ifadə vermişdi.

Hazırda DTX-də istintaqı aparılan cinayət işi üzrə Namiq Mirzəyev Cinayət Məcəlləsinin 179.4-cü (xüsusilə külli miqdarda mənimsəmə) maddəsi ilə ittiham olunur.



## Azərbaycan iqtisadiyyatı 4 faiz böyüyüb

**2024-cü ilin yanvar-iyul aylarında ölkədə 70 milyard 544,0 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,5 faiz çox ümumi daxili məhsul istehsal olunub.**

Bu barədə Dövlət Statistika Komitəsi xəbər verir.

Qeyd edilib ki, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,2 faiz, qeyri neft-qaz sektorunda isə 6,7 faiz artıb.

ÜDM istehsalının 38,4 faizi sənaye, 9,6 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 7,0 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,0 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5,7 faizi tikinti, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrinin, 19,1 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 10,0 faizini təşkil edib.

Əhalinin hər nəfərinə düşən ÜDM 6921,4 manata bərabər olub.

## ABŞ-dan Azərbaycana gətirilən bəzi qida məhsullarına nəzarət gücləndirilib

AQTA
AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) ABŞ-dan Azərbaycana idxal olunan bütün yüksək riskli qida məhsullarına nəzarət tədbirlərini gücləndirib.**

Agentlikdən "Report"a verilən məlumata görə, buna səbəb Amerika Birləşmiş Ştatları (ABŞ) Kənd Təsərrüfatı Departamentinin Qida Təhlükəsizliyi və Təftiş Xidməti rəsmi internet səhifəsində "Boar's Head" və "Old Country" brendlərinin 10 may 2024-cü il və 29 iyul 2024-cü il istehsal tarixli 71 növ qida məhsulunun geri çağırılması barədə qərarın elanı olub.

Belə ki, Xəstəliklərə Nəzarət və Profilaktika üzrə Federal Mərkəzinin məlumatına əsasən, ABŞ-ın 13 ştatında "Boar's Head Provisions Co" şirkəti tərəfindən istehsal olunan məhsulların "Listeria monocytogenes" bakteriyası ilə çirklənməsi nəticəsində 43 nəfərədək insanın xəstəliyə yoluxduğu müəyyənləşdirilib. Məlumatda həmçinin bildirilir ki, xəstəliyə yoluxanlar hospitalizə olunub və onların arasında üç ölüm hadisəsi baş verib.

"L.Monocytogenes" ilə çirklənmiş qidaların istehlakı ilk növbədə hamilə xanımlar, 65 və daha yuxarı yaşda olan və ya zəif immun sisteminə malik insanlara təsir edən ciddi infeksiya sayılan listerioz xəstəliyinə səbəb olur. Bəzi hallarda bu risk qruplarından kənar şəxslər də infeksiyanın təsir dairəsinə düşür.

AQTA qeyd edib ki, həmin məhsulların Azərbaycana idxal edilmədiyi müəyyənləşdirilib. Qurum idxalı həyata keçirilən yüksək riskli qida məhsullarının istehsalçılarının qüvvədə olan qanunvericiliyə əsasən təsdiq proseduruna cəlb olunduğunu xatırladıb.

## Elmar Məmmədyarov səfir gedir? - açıqlama

**Sabiq xarici işlər naziri Elmar Məmmədyarovun Rusiyaya səfir təyin olunacağı ilə bağlı məlumatlar yayılıb.**

Bildirilir ki, sözügedən təyinat 2024-cü il sentyabrın 1-də keçiriləcək Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdən sonra gözlənilir.

Elmar Məmmədyarov Musavat.com-a açıqlamasında bu xəbərdən danışıb: "Polad Bülbüloğunu artıq seçmisiz? (Gülür). Demokrat.az saytının nəyə əsaslanaraq bu barədə yazdığı haqda məlumatım yoxdur. Kim mənə səfir olacağım barədə təklif edib? Ortada bir şey yoxdur. Yalnız jurnalistlər yazırlar. Əvvəlcə Polad Bülbüloğu deputat seçilməlidir, sonra bu məsələyə toxunmaq olar. Məni səfir görmək istəyirsizsə, sizin əlinizdə olsaydı, mən deyərdim, hə (Gülür). Amma bilirsiniz sistem necə işləyir. Mənə təklif olunandan sonra bu məsələyə baxmaq olar. Məsələni həll etmək üçün məsələ yetişməlidir, ortaya çıxmalıdır".



## Apardı sellər rayonu...

**Avqustun 14-ü gündüz əsasən dağlıq ərazilərdə, 15-dən 16-sı axşamadək isə bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir.**

Çaylarda sululuğun artacağı, Böyük və Kiçik Qafqazın, həmçinin Lənkəran-Astara bölgəsinin bəzi dağ çaylarından qısamüddətli daşqın və sel keçəcəyi ehtimalı var.

Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.

Bildirilib ki, ayrı-ayrı yerlərdə (Qarabağ və Şərqi Zəngəzur, Qazax-Gəncə, Daşkəsən-Gədəbəy, Balakən-Şəki, Dağlıq Şirvan, Quba-Qusar, Mərkəzi Aran, Lənkəran-Astara) leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Avqustun 15-də axşamdan 16-sı səhərədək əksər rayonlarda yağıntıda fasilə olacaq.

YENİ MÜSAVAT
N 143 (8516) 14 avqust 2024

# Ehsan qadağası yenìdən gündəmdə

**Göygöl rayonunda və Gəncədə eyni gündə keçirilən yas mərasimlərində kütləvi zəhərlənmə ehsan qadağası mövzusunu yenidən gündəmə gətirib. Gəncədə kütləvi zəhərlənmənin olduğu yas mərasiminin sahibi deyib ki, dəfndən sonra ehsan verilib. Süfrədə bozartma, çörək, yuxa, pomidor, xiyar, göyərti, halva və digər qidalar olub.**

## Ekspertlərdən SOS!: "Bunun yeganə yolu inzibati metoddur və..."



Məlum olduğu kimi, hələ 2014-cü ildə Azərbaycanda israfçılığın qarşısını almaq məqsədilə dövlət hüzr mərasimlərində ehsan verilməsini xüsusi nəzarətə götürdü. Yeni təşəbbüs cəmiyyətin müxtəlif təbəqələri tərəfindən də dəstəklənirdi və rayon icra hakimiyyətlərində hüzrdə ancaq çay, halva və xurma verilməsinə nəzarət etmək üçün xüsusi komissiyalar belə yaradılmışdı.

Bu addım müəyyən nəticələr versə də, tezliklə hüzr yerləri ilə bağlı bir sıra narazılıqlara yol açdı. İddia olunurdu ki, ölkədə yas məclislərinin keçirilməsi qaydalarına dəyişiklik etməsi Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin ciddi narazılığına səbəb olub və bu baxımdan qərarın bugünədək də icrasız qalmasında Şeyxi də günahlandıranlar var. Doğrudur, QMİ bir neçə dəfə yaslarda israfçılığa yol verilməməsi barədə çağırış etsə də, hazırda Bakıda QMİ-nin nəzarətində olan əksər məscidlərdəki mərasim evlərində bir çox hallarda hətta dəbdəbəli ehsan süfrələri açılmaqda davam edir.

**İlahiyyat üzrə fəlsəfə doktoru, Milli Məclisin VI çağırış deputatı Ceyhun Məmmədov mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini deyib:** "Təəssüflə qeyd etmək lazımdır ki, bu məsələ ilə bağlı dəfələrlə çağırış edilsə də, heç bir dönüş yoxdur. Mən də parlamentdə, mediada bununla bağlı çağırışlar etmişəm. Təəssüf ki, yas məclislərinin təşkili böyük bir biznesə çevrilib.

Bu gün Azərbaycanda yasda olan israfçılığın dinlə əlaqəsi yoxdur. Dinimizə görə vəfat edən şəxsin ailəsində başsağlığına gələnlər üçün yemək bişirmək və ehsan vermək kimi öhdəliklər yoxdur. Əksinə, Məhəmməd Peyğəmbərin (s.a.v) hədisi var ki, vəfat edən şəxsin qonşuları və qohumları yas evinə yemək gətirməlidir. Daha da aydınlaşdırsaq, ailə dərin acı içindədir, lakın ehsan hazırlığı səbəbindən acısını yaşaya bilmir. Ehsan vermək üçün məkan, azuqə və digər ehtiyaclar arxasınca qaçır, təlaş yaşayır. Bu cür qayğılara görə biz öz əzizlərimizi son mənzilə necə yola salırıq, onu da bilmirik. Əslində hamı bu ehsan prosesindən narazıdır. İnsanlar banklardan kredit, borc, hətta sələmə pul götürürlər ki, yas məclisini yola versinlər. Etməzlərsə, insanlar tənəyə başlayırlar ki, "filankəs ölüsünə hörmətsiz yanaşdı, ölüsünə qiymət vermədi". Fikrimcə, bu məsələ ilə bağlı normativ aktlar da qəbul etməliyik. Hətta qanun səviyyəsində məsələ qaldıra bilərik. Bəzən deyirlər ki, bu, ictimai məsələdir, ona görə qanunlarla qadağa qəbuledilməzdir. Amma düşünürəm ki, hər birimiz yas-toylardakı israfçılıqdan bezmişik. Bəzən bir yas 30 min, 50 minə başa gəlir. Bir toy isə 500 minə başa gəlir. Nə də toylarda insanlar otura bilir, musiqi qulağı batırır. Bəzən eyni yeməklər toylarda təqdim olunur. Yaslarda da biz eyni problemi görürük, insanlar əziyyət çəkirlər. Süfrədə 3-4 cür yeməyə, şirniyyata nə ehtiyac var? Orta Asiya respublikaları, məsələn, Tacikistanda bununla bağlı müəyyən normalar müəyyənləşib. Bizdə də bu qaydalar olmalıdır. İnsanlar könüllü şəkildə bunu etmədiyi üçün inzibati resurslardan istifadəyə ehtiyac var. Fikrimcə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi də bu işdə fəal olmalıdır. QMİ də bu təbliğatın önündə getməlidir. Yas məclislərinə uzaqdan gələnlərə çay süfrəsi verilə bilər, nəzərə alına bilər. Amma iki min nəfərə süfrə açmaq yolverilməzdir".

**Dini sahə üzrə mütəxəssis, araşdırmaçı jurnalist Rəsul Mirhəşimli mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, Azərbaycanda yas mərasimlərinin keçirilməsi ilə bağlı müasir mənzərə nə bu xalqın tarixi ənənələri, nə İslam dininin qaydaları ilə uyğun gəlir:** "Dünyasını dəyişmiş insanların yaxınları yas mərasimləri zamanı bilmir ki, öz əzizlərinin itkisinə yansın, yoxsa qonaqların yemək məclisinin dərdini çəksin. Onun üçün bu mərasimə yemək məclisi deyirəm ki, bu mərasimin dini qayda ilə heç bir əlaqəsi yoxdur. Bizim ölkədə qeyd edilən yeddi, qırx, hətta bəzi hallarda əlli iki mərasiminin də İslam dini ilə heç bir bağlılığı yoxdur. Bu ənənə başqa dinlərin nümayəndələrindən öyrənilmiş, yanlış olaraq da bizim ölkənin əhalisi arasında geniş yayılmış yanlış adətdir. İslam dini israfı ən bəyənilməyən əməllərdən biri sayır. Hətta Qurani-Kərimdə israf edənlər "şeytanla qardaş" adlandırılır. Bu qədər açıq və dəqiq bəyandan sonra yas mərasimlərindəki israf hallarını İslam dini ilə bağlamaq mümkündürmü?

İslam peyğəmbəri Hz.Məhəmməd (s) bir hədisində buyurur: "Dünyasını dəyişmiş insanın yaxınlarını üç gün ziyarət edin". Bu da mərhumun yaxınlarına təsəlli vermək, dərdinə şərik olmaq anlamını ifadə edir. Təəssüf ki, bizdə dinimizin bütün buyruqlarının əksinə yas mərasimləri banket tədbirlərinə dönüb.

Dinimiz bir yandan da hansısa əmələ görə kollektiv məsuliyyəti deyil, fərdi məsuliyyəti əsas götürür. Çünki Allah qatında hər kəs öz əməlinə görə mükafatlandırılır, yaxud ona cəza verilir. Bu baxımdan da yas mərasimlərində normal qaydalara əməl etməyi hər kəs özündən başlamalıdır. Təbii ki, mərasim evləri, ərzağın bu yerlərə topdansatışı bu işin biznesini quranlar üçün sərfəli vasitədir. Lakin kimsə ehtiyacı olan insanlara həqiqi, dinimizin tövsiyə etdiyi kimi ehsan etsə, yardımlaşsa, bunu qarşısını kim ala bilər?

Qəbiristanlıqlara nəzər salanda bütpərəstlik elementi ilə zəngin olan məzar daşlarını hansı müsəlmanlığa aid etmək olar? İnsanlar fərqində deyil ki, kimlərinsə mərmər biznesinin daha da çiçəklənməsinə yardımçı olurlar. Təəssüf ki, dini təbliğat, israfdan qaçmağı təşviq etməklə bu qədər biabırçılıqları aradan qaldırmaq mümkün olmur. Nə qədər bu vasitənin tətbiqini istəməsəm də, görünür, yas mərasimlərində və toylarda normal qaydalar yaratmağın yolu inzibati metodlarla tənzimləmədən keçir. Əks halda, nəyəsə nail ola bilməyəcəyik".

❑ **Afaq MİRAYİQ,
"Yeni Müsavat"**

## Şeyx Rusiyaya getdi



**Avqustun 14-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Rusiya Federasiyası Qaraçay-Çərkəz Respublikasının paytaxtı Çerkessk şəhərinə gedib.**

QMİ sədri Şeyxülislam A.Paşazadə vəfat etmiş tanınmış din xadimi - Qafqaz Xalqları Ali Dini Şurasının sədr müavini, Şimali Qafqaz Müsəlmanları Əlaqələndirmə Mərkəzinin sədri, Qaraçay-Çərkəz Respublikasının Müftisi Hacı İsmayıl Berdiyevin yad olunması mərasimində iştirak edəcək, ailəsinə, yaxınlarına, Qaraçay-Çərkəz Respublikasının rəhbərliyinə və ictimaiyyətinə Azərbaycan Respublikasının Prezidentinin başsağlıqlarını çatdıracaq. Mərhumun qəbri ziyarət edilərək ruhuna dualar oxunacaq, xatirəsinə ehsan mərasimi təşkil ediləcəkdir.

Qaraçay-Çərkəz Respublikasına səfər çərçivəsində Qafqaz Xalqları Ali Dini Şurasının növbədənkənar iclası keçiriləcək.

## Məhkəmə Əli Kərimliyə qarşı şikayəti geri göndərdi



**Məhkəmə AXCP sədri Əli Kərimliyə qarşı şikayəti icraata götürməyib. "Report" xəbər verir ki, qərar Nəsimi Rayon Məhkəməsində hakim Babək Pənahovun sədrliyi ilə keçirilən məhkəmə iclasında verilib.**

Şikayət Cinayət Prosessual Məcəllənin 293-cü maddəsinə uyğun olmadığından icraata götürülməyib. Eyni zamanda sənədlər tam hazır olmadığından şikayətçiyə vaxt verilib.

Məhkəmənin hazırlıq iclası avqustun 19-u saat 11:00-a təxirə salınıb.

Qeyd edək ki, Ə.Kərimli barəsində bir neçə gün əvvəl sabiq partiya üzvü Əliyev Aydın Sədədqulu oğlu məhkəməyə müraciət edib. Aydın Əliyev müraciətində Ə.Kərimlinin şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər bölümü ilə əlaqədar xüsusi ittiham qaydasında cəzalanmasını istəyib.

A.Əliyev uzun müddət AXCP-də fəaliyyət göstərib. O, 10 iyun 2019-cu il tarixində partiya sıralarından kənarlaşdırılıb.




**Vətən müharibəsindən məğlubiyyətlə çıxan dünya erməniləri, Qərb mediasının siyasi korrupsiyaya uğrayan dairələri və onların yerli uzantıları tərəfindən Azərbaycana qarşı sistemli dezinformasiyanın son aylar daha da intensivləşməsi müşahidə olunur. Müasir dünyada informasiya məkanı dövlətlərin həm də coğrafi ərazisinin ayrılmaz hissəsidir. Son dövrlər bəzi ölkələrin media resursları mötəbərliyi şübhə doğuran mənbələrə istinad edərək Azərbaycan barədə həqiqəti əks etdirməyən, yerli və beynəlxalq auditoriyanın ictimai rəyini çaşdırmağa yönəlmiş məlumatlar yaymaqdadırlar.**

# Azərbaycana "dezo hücumu" - xüsusi idarə yaratmaq zamanı

## Ölkəyə qarşı sistemli dezinformasiya daha da intensivləşib; bununla mübarizə və kommunikasiya mərkəzi təsis oluna bilər

Yada salaq ki, həftəsonu İsrailin "Kan" dövlət televiziya və radio şirkəti informasiya yaydı ki, yəhudi dövlətinin ordusu İrandan gələn hücum təhlükəsi fonunda öz hərbçilərinin Azərbaycan və Gürcüstanda qalmasını qadağan edib. Bildirilib ki, ordu rəhbərliyinin əmrinə əsasən, hazırda "Cənubi Qafqazın bu iki respublikasında hər hansı səbəbdən hərbi xidmətdə olan israillilər dərhal İsrailə qayıtmağa borcludurlar".

"Kan" qeyd edib ki, Gürcüstan və Azərbaycan İranla yanaşı yerləşir, onların ərazisində iranlılar yaşayır və Azərbaycanın İslam Respublikası ilə ümumi sərhədi var.

Ardınca Azərbaycan Media Agentliyi bu informasiyanı "dezinformasiya" adlandıran bəyanat yaydı və bildirildi ki, "Son dövrlər bəzi ölkələrin media resursları mötəbərliyi şübhə doğuran mənbələrə istinad edərək Azərbaycan barədə həqiqəti əks etdirməyən, yerli və beynəlxalq auditoriyanın ictimai rəyini çaşdırmağa yönəlmiş məlumatlar yaymaqdadırlar. Dezinformasiyanın təsiri altında "İran International" televiziya kanalı, habelə "The Telegraph" nəşri və "Kan" agentliyi Azərbaycan barədə beynəlxalq jurnalistika standartları ilə bir araya sığmayan informasiya manipulyasiyası həyata keçirib, guya İsrailin öz hərbçilərinə Azərbaycanda qalmağı qadağan etməsi barədə dezinformasiya yayıblar".

**Məlumatda qeyd olunub ki, Azərbaycan ərazisində hər hansı bir xarici dövlətin hərbi kontingenti mövcud deyil və bununla bağlı yalan məlumatlara söykənmiş informasiya manipulyasiyaları ciddi şəkildə qınanılır:** "Eyni zamanda bir daha diqqətə çatdırırıq ki, hansı ölkədə fəaliyyət göstərməsindən asılı olmayaraq, media məlumatları paylaşarkən hamı tərəfindən qəbul olunmuş jurnalistikanın vahid etik prinsiplərinə əməl etməlidir. Bu tipli klassik dezinformasiya nümunəsi olan materialların sosial şəbəkə seqmentinə sirayət etdikdən sonra bəzi yerli media subyektlərimiz tərəfindən təkrar tirajlanmasını yolverilməz hesab edirik".

"Kan" televiziyasının yaydığı məlumatdan sonra İran tərəfində Azərbaycana qarşı olan qüvvələr tərəfindən hədələyici bəyanatlar səsləndirilir. Yerli ekspertlər hesab edirlər ki, Yaxın Şərqdə baş verən proseslərə Azərbaycanı da qoşmaq niyyətində olan qüvvələr dezinformasiyalar yaymaqla ölkəmizə qarşı təxribata cəhdlər edirlər.

Qeyd edək ki, İran çoxdan Azərbaycanla sərhəddə İsrailin "kəşfiyyat obyektləri" yaratdığında israr edir. Rəsmi Bakı dəfələrlə bunu təkzib edib, öz ərazisindən İrana qarşı hər hansı düşmənçilik hərəkətlərinə yol verməyəcəyini bildirib. Öz növbəsində, Tehran indiyədək Azərbaycanda İsrail obyektlərinin mövcudluğunun hər hansı dəlilini təqdim etməyib. İranın Kürdüstandakı və Azərbaycandakı İsrail obyektlərinə zərbə endirməsi mümkünlüyü haqqında məlumat şənbə günü Britaniyanın "The Telegraph" qəzetindəki nəşrdən sonra yayılmışdı. Bu nəşrdə prezident Pezeşkianın köməkçilərindən birinin Kürdüstan və Azərbaycanın liderlərinə əvvəlcədən xəbərdarlıq edərək, İsrailin bu ölkələrdəki obyektlərinə şərti zərbə endirmək İsrailin özünə qarşı böyük müharibəyə başlamaqdan daha yaxşı olduğu haqqında sözlərindən sitat gətirilib.

Dünyada ayrı-ayrı KİV-lər və müvafiq qurumlarla bu tip dezinformasiya ilə mübarizə aparmaq, yaxud onu təkzib etmək kimi təcrübə yoxdur. Bu xüsusi spesifik yanaşma tələb edən bir işdir. Bu gün dünya informasiya məkanında yalanın və dezinformasiyaların xüsusi çəkisi artır. Bu ona qarşı mübarizəni də aktuallaşdırır. Məsələn, ABŞ Senatı hələ Ukrayna müharibəsindən əvvəl Rusiyanın dezinformasiya siyasətinə qarşı mübarizə aparmaq üçün 200 milyon dollar vəsait ayırmışdı. Bu işlə xüsusi mərkəzlər məşğul olur. Ölkəmizə qarşı dezinformasiya hücumuna qarşı çıxmaq üçün əlbəttə ki, sistemli və düşünülmüş, ardıcıl iş aparılmalıdır. Qeyd edək ki, qardaş Türkiyədə dezinformasiyaları aşkarlamaq və zərərsizləşdirmək məqsədilə xüsusi mərkəz təsis edilib. Azərbaycanda ekspertlər, araşdırmaçı jurnalist və media sahəsində analitiklərdən ibarət dezinformasiya ilə mübarizə və kommunikasiya mərkəzinin yaradılması təklif olunsa da, bu proses ləngiyir.

**Azvision.az saytının baş redaktoru Vüsal Məmmədov qeyd etdi ki, belə bir mərkəzin yaradılması zəruridir:** "Hətta deyərdim ki, bizə hava-su kimi lazımdır. Xüsusən də müharibədən sonra Azərbaycan əleyhinə hibrid müharibə güclənib, təhdid xarakterli, yalan və böhtanlarla dolu məlumatların tirajlanması artıb. Ona görə informasiya işini bilən, dezinformasiya mexanizmlərinə bələd olan operativ qərargah yaratmaq vacibdir". **V.Məmmədovun sözlərinə görə, Qərb informasiya məkanından, həmçinin Ermənistandan Azərbaycana qarşı dezinformasiya hücumları artıb:** "Özəlliklə də bir günlük antiterror əməliyyatından sonra Qərb mənbələri hadisələri yanlış şəkildə təqdim etməyə başladılar, Azərbaycanı əsassız yerə etnik təmizləmədə ittiham etdilər və bu gün də saxta xəbərlər, təhdidedici informasiyalar işıqlandırılır. Son məsələdə də Azərbaycanı dost İsrail və qonşu İranla üz-üzə qoymaq cəhdi var idi. Ona görə də belə bir mərkəzin yaradılmasına ehtiyac var".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Türkiyəsiz NATO

## Bunun baş verməməsi üçün rəsmi Ankaranın təhlükəsizlik qayğıları nəzərə alınmalı, həm də "damarına basılmamalıdır..."

**Son zamanlar Türkiyənin perspektivdə NATO-dan çıxacağı ilə bağlı davamlı iddialar irəli sürülür. Bu ehtimalları şərtləndirən başlıca amil kimi Türkiyənin blok üzrə bəzi müttəfiqləri, o cümlədən ABŞ və Fransa ilə fərqli xarici siyasət kursuna malik olması göstərilir. NATO ölkələri radikal şəkildə Rusiya əleyhinə mövqe tutduğu halda, Türkiyə həm Rusiya, həm də Ukrayna ilə münasibətini eyni səviyyədə saxlayır.("Report")**




Birincisi, Yaxın Şərqdə cərəyan edən proseslərdə də Türkiyə ilə NATO-dakı müttəfiqlərinin mövqeyi toqquşur. Vaşinqton İsraili birmənalı dəstəkləsə də, Ankara HƏMAS və Fələstinin tərəfində olduğunu bildirir. ABŞ isə bundan fərqli olaraq Ermənistanı silahlandırır və forpostuna çevirmək istədiyi bu dövlət vasitəsilə regionda gərginliyi artırmağa səy göstərir.

İkincisi, tərəflər Cənubi Qafqazda da fərqli yanaşma ortaya qoyurlar. Türkiyə Azərbaycan və Ermənistan arasında sülh prosesini, regional əməkdaşlığı dəstəkləyir və prosesə töhfə verməyə hazır olduğunu bildirir. ABŞ isə bundan fərqli olaraq Ermənistanı silahlandırır və forpostuna çevirmək istədiyi bu dövlət vasitəsilə regionda gərginliyi artırmağa səy göstərir.

Bundan başqa, nəzərə almaq lazımdır ki, NATO-da təmsil olunan Türkiyə və Yunanıstan arasında uzun illərdir siyasi gərginlik səngimək bilmir. Nəticədə bu ölkələr arasında gərginlik, az qala, müharibə həddinə qədər yüksəlir.

**Belə bir şəraitdə Türkiyənin milli müdafiə naziri Yaşar Gülərin "Reuters" agentliyinə müsahibəsində NATO ilə bağlı səsləndirdiyi fikirlər diqqət çəkir. O bildirib ki, rəsmi Ankara NATO-nun daha da güclü olmasını istəyir:** "Prioritetimiz önəmli müttəfiqimiz olan NATO-nu dəstəkləmək, ona töhfə verməkdir. Fokus nöqtəmiz Alyansın güclü, qətiyyətli olmasıdır".

Şübhəsiz, Türkiyə NATO-nun əsas üzvlərindən biridir. Rəsmi Ankara alyansa hərbi-siyasi baxımdan ciddi dəstək verir. Amma yuxarıda vurğulandığı kimi, Türkiyənin xarici siyasət kursu bəzi müttəfiqlərindən xeyli dərəcədə fərqlənir. Bu, Türkiyənin müstəqil, başqa dövlətlərdən asılı olmayan xarici siyasət kursu seçməsinin qəti təzahürüdür.

Xatırlatmaq yerinə düşər ki, İsveçin NATO-ya üzvlüyü ilə bağlı ən prinsipial məsələ məhz Türkiyənin qərarı idi. Türkiyə NATO qarşısında konkret şərtlər qoydu və yalnız qaneedici cavab addımlarının atılmasından sonra İsveçin bloka üzvlüyünə mane olmadı.

Bu gün dünyada çox ciddi qütbləşmə prosesi gedir. Ayrı-ayrı aktorlar öz tərəflərini seçirlər. O halda Y.Gülərin dediyi kimi, NATO-nun güclü olması, təbii, bütün üzv dövlətlərin marağına uyğundur. Bu, xarici təhdidlərə qarşı bütövlükdə NATO-nu və deməli, həm də blok üzvlərinin hər birini daha güclü, təhlükəsiz edə bilər.

Amma onu da nəzərə almaq lazımdır ki, rəsmi Ankara zaman-zaman NATO-dakı müttəfiqlərinin ünvanına sərt ritorika ilə tənqidi fikirlər səsləndirməkdən çəkinmir. Bu, beynəlxalq nizamın pozulması, terrorizmə qarşı mübarizə kontekstlərində özünü daha çox göstərir. Məsələn, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bir müddət əvvəl açıq mətnlə bəyan etmişdi ki, NATO rəsmi Ankaranın gözləntilərini doğrultmur.

Əksər təhlilçilərin fikrincə, Türkiyənin Şimali Atlantika alyansında üzvlüyünü saxlaması həm bu dövlətin özünün, həm də NATO-nun xeyrinədir. Əslində bu məsələdə NATO, ABŞ daha çox maraqlı olmalıdır. Çünki Türkiyə Rusiya ilə "dil tapmaq" imkanı olan yeganə NATO üzvüdür. Bu, blok üçün son dərəcə mühüm məqamdır. İkincisi, Türkiyə NATO-nun ciddi regional proseslərin getdiyi Cənubi Qafqazdakı təmsilçisidir. Üçüncüsü, Türkiyə ilə Çin, İran kimi Şərq ölkələri arasında normal əlaqələr də əslində alyans üçün ciddi əhəmiyyət daşıyır. Əgər Türkiyə NATO-dan çıxsa, Şərq ittifaqı (xüsusilə Rusiya, Çin, İran) NATO üçün daha ciddi təhlükəyə çevrilə bilər. Bu isə alyansa lazım deyil.

Odur ki, NATO Türkiyəni itirməməyə çalışmalıdır. Bunun üçün isə rəsmi Ankaranın təhlükəsizlik qayğılarının nəzərə alınması ilə yanaşı, həm də "damarına basılmaması" vacibdir.

YENİ MÜSAVAT
N 143 (8516) 14 avqust 2024

# Ara, erməni hara, Avropa İttifaqı hara... - Brüssel İrəvanı məyus etdi

## Paşinyanın Avropa İttifaqına üzvlüklə bağlı spekulyasiyaları önləndi - Ermənistan kimi reputasiyası ləkəli bir dövlətin...

**Ermənistan-Avropa İttifaqı danışıqlarının ölkənin bu quruma üzvlüyünə namizədlik imkanları ilə heç bir əlaqəsi yoxdur. “Yeni Müsavat” xəbər verir ki, bu barədə Aİ-nin xarici siyasət xidmətinin nümayəndəsi Piter Stano “Azatutyun”a (Azadlıq) müsahibəsində bildirib. “Bunun əslində üzvlük üçün potensial namizədlərin irəli sürülməsi prosesi ilə heç bir əlaqəsi yoxdur. Aİ-Ermənistan Tərəfdaşlığı Gündəliyi üzrə danışıqlar hər iki tərəfin birgə daha çox iş görmək istəyini və iradəsini əks etdirir, lakin mövcud əlaqələr əsasında. Hazırkı əlaqələr isə Hərtərəfli və Genişləndirilmiş Tərəfdaşlıq Sazişi ilə müəyyən edilir”, - deyə o qeyd edib. İsveçrə parlamentinin üzvü Stefan Müller-Altermatt da Ermənistanın Avropa İttifaqına üzvlüklə bağlı pessimist düşüncədədir.**



Yada salaq ki, bu ilin fevralında Avropa Parlamenti Ermənistanın Avropa İttifaqına üzvlüyünə namizədliyi imkanlarına baxmağı təklif edən qətnamə qəbul edib. “Əgər Ermənistan namizəd statusu üçün müraciətində və demokratiyasını möhkəmləndirən davamlı islahatlarda maraqlı olarsa, bu, Aİ-Ermənistan münasibətlərində transformasiya mərhələsinə zəmin yarada bilər”, - sənəddə deyilirdi. Qətnamədə vurğulanır ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvlüyünü dondurmaqla Ermənistan təhlükəsizlik baxımından Rusiyadan asılılığını azaltmağa çalışır, təhlükəsizliyinin qorunması üçün “yeni oyunçular” cəlb edir və Fransa, Yunanıstan və digər Aİ üzv dövlətləri ilə hərbi əməkdaşlığı artırır. Qətnamədə o da əlavə edilib ki, Ermənistan hələ də Avrasiya İqtisadi İttifaqının üzvüdür və hələ də Ermənistan iqtisadiyyatının böyük hissəsi Rusiyadan asılıdır.

Bu ilin martında isə baş nazir Nikol Paşinyan İrəvanın Avropa İttifaqı üzvlüyünə namizədlik üçün yaxın günlərdə ərizə verəcəyini demişdi. Amma bir neçə gün sonra Ermənistan parlamentinin spikeri Alen Simonyan hazırkı mərhələdə Avropa İttifaqına daxil olmaq üçün ərizə vermək məsələsini müzakirə etmədikləri dedi. Simonyanın sözlərinə əsasən, hazırda Ermənistanın Aİ-yə üzvlük məsələsi müzakirə mövzusu deyil: “Düşünmürəm ki, belə bir hadisə baş verə bilər. Ermənistan hələ müraciət etməyib və Aİ-yə üzv və ya namizəd olmaq üçün gözləyir. Bizim görülməli çox işimiz var ki, Gürcüstan və ya Türkiyə kimi illərlə Aİ-yə üzvlüyü gözləməli olmayaq”. Halbuki Paşinyan Danimarkadakı zirvədə günü elə bu gün Aİ üzvü olmaq istədiklərini bildirmişdi...

Rusiya XİN isə Ermənistan hakimiyyətinin bu davranışlarının “dost erməni xalqının maraqlarına cavab vermədiyini” bəyan edib. Xarici işlər naziri Sergey Lavrov İrəvandan gələn bəyanatların ikitərəfli münasibətlərə yenidən baxılmasına səbəb ola biləcəyini deyib. Müxalifət isə hakimiyyətin Rusiyadan, KTMT-dən üz çevirərək Qərbə yönəlməsini Ermənistan üçün yaxşı heç nə vəd etmədiyini düşünür. Paşinyanın Avropa İttifaqına üzvlüklə bağlı spekulyasiyalarını Brüssel niyə önləyir? Ermənistan kimi reputasiyası ləkəli bir dövlətin Aİ adından sui-istifadəsindən utanırlar, ya necə?

“Doğrudan da Ermənistan hara, Avropa Birliyinin bir parçası olmaq hara? Üstündə indiyədək işğalçı adı var, üzərində Xocalı qətliamı var, işğal dövründə vurduğu maddi-mənəvi ziyan ölüçəygəlməzdir, dünənə qədər Rusiyanın vassalı olub, cəmiyyət monoetnikdir, multukultural dəyərlərə hörmət saxlamır, irqçilik, ifrat millətçilik, daşnakçılıq və terrorçuluq meyllərini hələ də özündə gəzdirir, daxilində terror qrupları mövcuddur, sərhədlərini isə Avropa Birliyinin sanksiya qoyduğu Rusiyanın hərbçiləri mühafizə edir. Belə bir Ermənistan Avropa İttifaqına lazım deyil”, - deyə “Yeni Müsavat”a açıqlamasında **Vətəndaş Həmrəyliyi Partiyasının Mərkəzi İcra Aparatının rəhbəri Samir Əsədli** vurğuladı. S.Əsədli qeyd etdi ki, hazırda Ukrayna, Gürcüstan və Moldova namizədlik statusu qazanıb, amma onlar da illərlə gözləməli olacaqlar: “Hətta Gürcüstandakı iqtidarın siyasəti ucbatından Avropa İttifaqı Tiflisə yardımları dayandırdı, inteqrasiya prosesini dondurdu. Brüssel hesab edir ki, oxşar vəziyyət İrəvanda yaşana bilər. Sabah Paşinyanın yerinə ruspərəst qüvvələr hakimiyyətə gəlsələr, o zaman Ermənistanın Avropa İttifaqına yolu bağlanacaq. Ona görə də Qərb tələsmir və Avropa İttifaqı rəsmilərinin son bəyanatları da belə oxunmalıdır”.

**Partiya rəsmisi əlavə etdi ki, Aİ üzvü olmaq asan deyil, uzun prosedur var və bunun üçün rifah səviyyəsindən tutmuş demokratiyaya qədər bütün standartlara cavab vermək lazımdır:** "Hələ bura gömrük sistemi, təhlükəsizlik, sərhədlərin qorunması, cəmiyyətin siyasi inkişafı və digər amillər daxildir. Üstəgəl, Ermənistan müharibədən yeni çıxıb və işğalçı olaraq qalmaqdadır, iki dövlətə qarşı ərazi iddiaları irəli sürməkdədir. Avropa Birliyində belələrinə yer yoxdur".

**Siyasi Hüquqların Müdafiə Mərkəzinin rəhbəri Xəzər Teyyublu isə Ermənistanın Aİ üzvlüyü üçün uzun illər səy göstərməli olduğunu açıqladı. Onun sözlərinə görə, Rusiyanın hərbi-siyasi-iqtisadi təsirləri qalmaqdadır və ondan uzaqlaşmaq böyük resurs, güc tələb edir:** “Qərb İrəvanı hələ ki asta addımlarla dəstəkləyir. İntəhası, Ermənistan hələ növbədə çox gözləməli olacaq. Hazırda ən böyük şansı olan Ukraynadır, onu belə hələ də üzv etmirlər. Gürcüstanla Moldovanın da ərazi bütövlüyü problemi mövcuddur. Onlar da Ukrayna kimi ümidlidirlər. Ermənistanın ərazi bütövlüyü problemi yoxdur, sadəcə, Azərbaycanla sülh müqaviləsini imzalamalıdır, sərhədlər dəqiqləşməlidir. Sonra bu sərhədləri yalnız erməni hərbçisi qorumalıdır. O vəziyyət yaranıb ki, Azərbaycanla sərhədə xidmət üçün polis göndərilir. Çünki sərhədçi çatışmır. Sabah Türkiyə və İran sərhədlərini mühafizə etməyə onun canlı qüvvə sandan imkanı olmayacaq. Ona görə Rusiyadan asılılığı davam edə bilər. Bu mənada sadalanan problemlər həllini tapmalıdır ki, Ermənistan Avropa İttifaqında qəbul edilən dövlət olsun”. Hüquq müdafiəçisi onu da yada saldı ki, Ermənistan KTMT və Aİİ-dan çıxmayınca, Türkiyə ilə quru sərhədləri açılmayınca, Aİ qapıları da açılmayacaq. Onun fikrincə, Aİ-nin Ermənistan kimi bir üzvə ehtiyacı da yoxdur, sadəcə, Cənubi Qafqazda möhkəmlənmək naminə bu ölkə üzərindən siyasət aparılır, xüsusən Fransa tərəfindən...

**❑ Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# “Ermənistanın düşdüyü dalanın qapısını bağlayıb, açarı da cibimizə qoyuruq”

## Eldar Namazov Zəngəzur dəhlizinin sülh müqaviləsindən çıxarılmasını şərh etdi

**Məlum olduğu kimi, ötən həftə Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov Zəngəzur dəhlizi məsələsinin sülh gündəliyi müqaviləsindən çıxarılması barədə fikirlər səsləndirib. Onun sözlərinə görə, hər iki tərəf sözügedən bəndi sülh sazişindən çıxarmaq və onun müzakirəsini sonrakı mərhələyə keçirməklə bağlı razılığa gəlib.**



“Qafqazinfo” xəbər verir ki, İTV-nin “Diqqət mərkəzi” proqramına qonaq olan **politoloq Eldar Namazov** mövzunu şərh edərək bunun çox vacib qərar olduğunu açıqlayıb.

“Bu qərar Azərbaycanın mövqelərini möhkəmləndirir, Ermənistanı daha da çətin vəziyyətə salır. Burada bir hadisədən söhbət getmir - bu, təkcə Zəngəzur dəhlizi ilə bağlı deyil, ümumiyyətlə, kommunikasiya məsələləri müqavilədən çıxdısa, hamı düşünür ki, bu, Azərbaycanın ziyanına ola bilər. Əslində isə burada bir neçə vacib hadisə baş verdi. Azərbaycanla Ermənistan arasında 3 kommunikasiya müzakirə olunurdu. Biz daha çox Zəngəzur dəhlizi haqqında danışırdıq. Ermənilər daha çox Culfaya dəmir yollarının açılması və Culfa vasitəsilə İranla dəmir yollarına birləşməsi haqqında danışırdılar. Ermənistan özünün sanki Şimal-Cənub Nəqliyyat Dəhlizinin vacib oyunçusuna çevriləcəyi haqqında bəyanatlar verirdi. Həmçinin İcevan-Qazax dəmir yolunun açılmasını istəyirdilər. Belə çıxır ki, hər 3 məsələ bir az təxirə salınır”, - politoloq bildirib.

**E.Namazov vurğulayıb ki, E.Əmirbəyovun müsahibəsindən sanki ermənilərin qarşısında bir yol xəritəsinin qoyulduğu aydınlaşır:** “Yəni get əvvəlcə konstitusiyanı dəyiş, konstitusiyandan Azərbaycana qarşı ərazi iddialarını çıxar, bəzi qanunlara düzəliş et. Bütün bunlardan sonra Ermənistanla sülh sazişi imzalana bilər. Və bundan sonra kommunikasiyalar məsələsinə baxa bilərik”.

**Politoloq bildirib ki, əslində biz “onların düşdükləri dalanın qapısını bağlayırıq və açarı da cibimizə qoyuruq”**: “Paşinyan bir müddət əvvəl bəyanat verdi ki, yeni konstitusiya hazırlanmalıdır. Bunun üçün 2026-cı ilin sonuna qədər Ermənistan hakimiyyətinə vaxt verib. Əgər konstitusiya o vaxt hazırlansa, referendum 2027-ci ildə olacaq. Ondan sonra kommunikasiya məsələsini müzakirə edə bilərik. Bu onu göstərir ki, onların qarşısına yol xəritəsi, şərt qoyulub.

Belə vəziyyət yaranır ki, ermənilər yaxın 3-4 ildə öz daxili işləri ilə məşğul olmalıdır. Azərbaycan isə həm Avropa İttifaqı və Çinin dəstəyi ilə Gürcüstanla bir yerdə Orta dəhlizi genişləndirməlidir. Zəngəzur dəhlizindən aşağıda Araz dəhlizi deyilən yer var, biz oradan İran ərazisindən Türkiyəyə yol açacağıq. Bakı-Tiflis-Qars yolumuz da var idi ki, indi modernizə olunur. Bu isə ikinci yoldur. İran tərəfi də elan edib ki, Şimal-Cənub Nəqliyyat Dəhlizi Azərbaycandan keçəcək. Artıq bununla bağlı qərar verilib.

Bir müddət əvvəl Şoyqu Azərbaycana gələndə onun yanında İqor Levit oturmuşdu, o, Putinin beynəlxalq dəhlizlər üzrə köməkçisidir. O, həm Tehrana, həm Bakıya gəlmişdi. Burada bir məqsəd var idi, Astara-Rəşt məsələsi həll olunur, Azərbaycan Rusiya-İran və bütün dünya arasında mühüm rol oynayacaq Şimal-Cənub Nəqliyyat Dəhlizinin əsas oyunçusuna çevrilir. Bu qərarların hamısı eyni vaxtda elan olundu. Bundan sonra biz bütün dəhlizləri açırıq və genişləndiririk".

E.Namazov əlavə edib ki, Azərbaycan ilk növbədə Şimal-Cənub Nəqliyyat Dəhlizinin Ermənistandan deyil, Azərbaycandan keçəcəyini təsdiqləyir. Araz dəhlizini açır, Orta dəhlizi genişləndirir. Bundan sonra isə Zəngəzur dəhlizini açacağıq. Bütün bunlar onu göstərir ki, biz öz planlarımızdan imtina etmirik.

**❑ "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 143 (8516) 14 avqust 2024

# İrəvana silah daşıyan ABŞ təyyarələrinin görüntüləri yayıldı

## Ermənistan bu dəfə ABŞ-ın kuklası rolunda - Azərbaycanı yeni müharibə gözləyir?

**Avqustun 2-si və 3-də ABŞ Hərbi Hava Qüvvələrinin iki təyyarəsi İrəvanın Zvartnots hava limanına enib. Bu barədə avqustun 6-da "Caliber" eksklüziv məlumat yaymışdı. Bildirilirdi ki, "Boeing C-17" hərbi yük təyyarələrində İrandan atılan raketlərin və digər uçuş aparatlarının trayektoriyasını izləyən xüsusi alətlərin daxil olduğu hərbi yüklərlə yanaşı, Ermənistana bu texnikaya nəzarət edəcək şəxsi heyət də gətirilib.**

Azərbaycan və İranla sərhəddə yerləşdiriləcək şəxsi heyətə diqqət çəkməmək üçün hərbçilər xüsusi seçilib. Belə ki, onların əksəriyyəti ABŞ ordusunda xidmət edən erməniəsilli Amerika vətəndaşlarıdır. Şəxsi heyət Ermənistan Silahlı Qüvvələrinin hərbi geyimi ilə təchiz olunub və Zəngəzurdakı hərbi bazada yerləşdirilib.




Bununla bağlı materialın dərcindən sonra ABŞ-ın Ermənistandakı səfirliyi məlumatı şərh etmədən tələsik açıqlama yaydı. ABŞ diplomatik missiyasının cavabında bildirilirdi: "Birləşmiş Ştatlar və Ermənistan arasında əməkdaşlığın genişləndirilməsinə yönəlmiş "Qartal Tərəfdaş 2024" təlimi iyulun 24-də uğurla başa çatıb. Biz təsdiq edə bilərik ki, bütün Amerika texnikası və şəxsi heyəti Ermənistanı tərk edib".

Təzad göz önündədir. "Eagle Partner 2024" iyulun 15-dən 24-dək Ermənistanda keçirilib. Amma avqustun əvvəlində ABŞ Hərbi Hava Qüvvələrinə məxsus hərbi-nəqliyyat təyyarələri Ermənistana gəlib... Beləliklə, səfirliyin reaksiyası tamamilə mövzudan kənar, ictimaiyyəti çaşdırmaq üçün təxribatçı manevr idi.

"Caliber.az" bu dəfə Zvartnots hava limanına enən hərbi-nəqliyyat təyyarələrindən birinin fotolarını paylaşıb. Eyni zamanda Ermənistana gələn Amerika hərbçilərinin irəliləmə marşrutu və yerini dəqiqliklə təqdim edib. Belə ki, fotoşəkildə göstərilən təyyarə Qətərdən havaya qalxaraq Gürcüstanın hava məkanı vasitəsilə Ermənistan ərazisinə daxil olub. Zvartnotsda silah və ABŞ hərbçilərinin olduğu üç konteyner boşaldılıb.

**Sayt bu barədə yazır:** "Əgər ABŞ səfirliyi və erməni tərəfi aşkar olanı təkzib etməyə davam edərsə, biz yeni təfərrüatları təqdim etməyə hazırıq. Bizdə materiallar var, lakin onları hissə-hissə verəcəyik".

İran tərəfi isə bu informasiyaları görməzdən gəlir. Rəsmi Tehranın məşhur "qırmızı xətləri", Ermənistanın ərazi bütövlüyü və Cənubi Qafqazda regiondankənar qüvvələrin mövcudluğunun yolverilməzliyi ilə bağlı tez-tez bəyan etdiyi mövqe bu dəfə nədənsə gözə dəymir. İranın Ermənistandakı səfiri də susur.

**Bu xəbərləri şərh edən tanınmış siyasətçi və hüquqşünas Qulamhüseyn Əlibəyli "Yeni Müsavat"a deyib ki, ABŞ regiona siyasi nüfuz edə bilmədiyinə görə indi hərbi yolla cəhd edir:** "Bir müddət əvvəl ABŞ və Ermənistan hərbçiləri birgə təlim keçirdilər. Bu o deməkdir ki, ABŞ Ermənistan vasitəsilə regiona daxil olmaq istəyir. Burada bir neçə maraq var. Öncə ABŞ-ın İranla münasibəti nəzərə alınmalıdır. Amerika daima bu və ya digər dərəcədə İran rejiminin dəyişdirilməsinə cəhdlər edir. Digər tərəfdən, regionda söz sahibinə çevrilmiş Azərbaycana təzyiq etməyə həvəsli görünür. ABŞ təkcə silahlandırmır, hətta hərbi cəhətdən də yardım göstərir. Qoşunlarını orada yerləşdirir ki, Azərbaycana qarşı yeni cəbhə açmış olsun. Əsas məqsədi də regionda gərginliyi artırmaqdır.

Hesab edirəm ki, indiki halda rəsmi Bakının yürütdüyü siyasət ABŞ-ın və ya Ermənistanın Azərbaycana hücumuna heç bir əsas vermir. Ancaq işimizi ehtiyatlı tutmalıyıq. Bunun üçün ən yaxşı vasitə yeni silahların əldə olunmasıdır. Bununla bağlı müəyyən işlər görülür. Eyni zamanda Türkiyə-Azərbaycan hərbi əməkdaşlığı genişləndirilməlidir. Azərbaycan ərazisində Türkiyə hərbi bazalarının yerləşdirilməsi gərginliyin azalmasına səbəb ola bilər".

**Q.Əlibəyli Rusiya və İranın hələ də bu xəbərlərə reaksiya verməməsini də şərh edib:** "ABŞ Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq istəyir. Bunu Ermənistan vasitəsilə edir. Çünki Azərbaycanda Rusiyanın hərbi hissələri yoxdur. Gürcüstanda isə Rusiyanın işğalı altında olan ərazilərdədir. Ən etibarlı variant ABŞ üçün Ermənistandır. Amma ABŞ-ın hərəkətləri Rusiyanın Ermənistanda hərbi gücünün artırılmasına gətirib çıxara bilər. Doğrudur, son dövrlər İrəvanın siyasəti ondan ibarətdir ki, Rusiya hərbçilərini Ermənistandan çıxarsın. Ancaq rəsmi müqavilə var. Ona əsasən, Rusiya Ermənistanda öz hərbi gücünü artıra bilər. Rusiyanın başı Ukrayna ilə müharibəyə qarışıb. Ancaq çalışacaq ki, digər regionlarda qalsın. Təbii ki, İranın da müəyyən reaksiyaları ola bilər. İlk növbədə ABŞ-ın anti-İran fəaliyyəti kimi qəbul edə bilər. İran isə yəqin ki, İsrailə gözlənilən zərbələri endirməklə müəyyən hərəkətə keçə bilər".

**Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə isə deyib ki, ABŞ yaranmış vəziyyətdən sui-istifadə edir:** "ABŞ Paşinyan hakimiyyətinə arxalanıb bölgəyə yerləşir. Eyni zamanda ABŞ İrana daha çox sanksiyalar tətbiq edən tərəf olaraq sərhəddə yerləşməklə bu ölkəyə də təsir imkanlarını artırır. Həmçinin Zəngəzur dəhlizinə nəzarət uğrunda böyük savaş gedir. ABŞ bu məsələdə də imkanlarını genişləndirmək istəyir. Təbii ki, bundan həm Rusiya, həm də cənub qonşumuz narahatdır. Onların reaksiyası mütləq və adekvat olacaq. Təəssüf ki, İran 30 il ərzində ermənilərə dəstək verməklə yanaşı, Azərbaycanın İsrail və digər Qərb dövlətləri ilə münasibətlərinə dərhal reaksiya verir, amma ABŞ-ın, Fransa və digər güclərin gəlib Ermənistan vasitəsilə İran sərhədinə yerləşməsinə səs çıxarmır. Zənnimcə, Rusiyanın reaksiyası özünü çox gözlətməyəcək. Rusiyanın hərbi kontingenti hələ də Gümrü hərbi bazasındadır. Bizdə olan məlumata görə, əvvəl kontingentin sayı 4200 civarında idisə, hazırda daha geniş tərkibdə təmsil olunurlar. Ermənistanın İran və Türkiyə sərhədləri də rus hərbçiləri tərəfindən qorunur. Ona görə də bu kontekstdən yanaşanda Ermənistan hələ Rusiyanın boyunduruğundan çıxmayıb. Yaxın zamanda çıxacağı da olduqca müşkül görünür. Ancaq Rusiyanın özünü dalana salması, Ukrayna ilə müharibə aparması ABŞ üçün münbit şərait yaradıb. Ermənistanda Rusiyanın yerini tutmaq üçün Qərb qüvvələri hərəkətə keçiblər. Ermənistan isə hər zaman olduğu kimi istifadə olunur. Bu prosesdə ciddi oyunun içinə girib, faciəli nəticələrlə qarşılaşa bilər. Bu bölgənin əsas güc sahibləri Azərbaycan və Türkiyədir. Gələcəkdə də Zəngəzur dəhlizi üzərində nəzarət bu tandemin əlində olmalıdır".

❑ **Şahanə RƏHİMLİ, Musavat.com**

# KTMT-nin yeni statusu - "Kollektiv müqavimətsizlik təşkilatı"



**"KTMT qeyri-real və heç bir effekti olmayan bir təşkilata çevrilib". Bu sözləri politoloq Rəşad Bayramov Cebhein-fo.az-ya şərhində Kollektiv Təhlükəsizlik Müqavilə Təşkilatının Rusiyadakı son proseslərə cəlb olunub-olunmayacağı ilə bağlı suala cavab verərkən bildirib.**

Qeyd edək ki, Kollektiv Təhlükəsizlik Müqavilə Təşkilatının üzv ölkələri - Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan və Tacikistan Ukraynanın Rusiyanın Kursk vilayətinə hücum əməliyyatına səssiz qalıblar və bu ölkələrin rəhbərləri bununla bağlı heç bir bəyanat səsləndirmirlər.

Düzdür, Rusiyanın özü KTMT-yə müraciət etməyib və təşkilatın toplantısını çağırmayıb. Amma Belarusu çıxmaq şərtilə, KTMT-nin digər üzv ölkələri Rusiyadakı son proseslərə heç bir mövqe nümayiş etdirmirlər.

**Politoloq Rəşad Bayramov vurğulayıb ki, KTMT artıq öz əhəmiyyətini itirib:** "KTMT-nin üzv ölkələrinin Ukrayna ordusunun Rusiyanın Kursk bölgəsində hərbi əməliyyatına səssiz qalmasının əsas səbəbi Moskvanın özünün KTMT-nin iclasını çağırmaması və bununla bağlı üzv ölkələrə müraciət etməməsidir. İkincisi, hazırkı reallıqlar onu göstərir ki, KTMT bir təşkilat olaraq ancaq kağız üzərində fəal təşkilat kimi görünür.

Təşkilatın üzv ölkələrinin indiyə qədər kollektiv şəkildə böyük məsələlərə münasibətini ehtiva edən, bu və ya digər şəkildə sülhməramlı missiyanın icrasını həyata keçirən bir-iki hal olub. KTMT bir təşkilat olaraq hər hansı şəkildə mühüm proseslərə təsir göstərmək imkanlarına malik deyil.

O ki qaldı Moskvanın KTMT-yə müraciət etməməsinə, qeyd edim ki, bu təşkilatda əsas və geniş hərbi gücə malik olan dövlət məhz Rusiyanın özüdür. Moskvanın KTMT-nin üzv ölkələrindən kömək diləməsi onun nüfuzuna zərbə vura bilər. Həmçinin Moskvada çox yaxşı bilirlər ki, istər müraciət, istər qeyri-müraciət fonunda ən yaxşı halda Belarus öz qoşunlarını Rusiyaya göndərə bilər. Onsuz da Rusiya ilə Belarus arasında birgə müdafiə ilə bağlı anlaşmalar var. Ermənistana müraciət etməyin mənası yoxdur.

Çünki İrəvan KTMT-də öz fəaliyyətini dondurub, müraciət edilsə belə, Ermənistan hakimiyyəti heç bir reaksiya verməyəcək. Digər üzv ölkələr - Qazaxıstan, Qırğızıstan və Tacikistana da müraciət edilsə, heç bir effektli nəticə əldə olunmayacaq".

Belə görünür ki, KTMT-nin yeni statusu - "Kollektiv müqavimətsizlik təşkilatı" kimi qiymətləndirilə bilər.

❑ **"Yeni Müsavat"**




# Spiker seçəcək 63 deputat...

## Ən çox hansı dairədə namizəd yarışacaq, ən gənc və yaşlı namizədlər kimlərdir?

**125 seçki dairə arasında ən çox və ən az namizədlərin olduğu yerlər isə artıq bəllidir. Belə ki, ən çox namizəd 12 saylı Xəzər Birinci Seçki Dairəsində qeydə alınıb. Bu dairədə 13 deputatlığa namizəd qeydə alınıb.**

Ən az namizədin qeydə alındığı dairələr isə 1 saylı Şərur-Sədərək Seçki Dairəsi, 36 saylı Xətai-Suraxanı Seçki Dairəsi, 48 saylı Abşeron Birinci Seçki Dairəsi, 55 saylı Siyəzən-Quba-Xızı Seçki Dairəsidir. Bu dairələrdə 6 nəfərin namizədliyi qeydə alınıb.

Qeyd edək ki, artıq deputatlığa namizədlər arasında ən gənc və ən yaşlısı müəyyənləşib. Belə ki, namizədlər arasında ən gənci 2006-cı il təvəllüdlü Zəbulla Hüseynovdur. O, tələbədir və 18 yaşı var. Gənc namizəd 65 saylı Salyan-Biləsuvar-Neftçala seçki dairəsində deputat mandatı qazanmağa çalışacaq.

Ən yaşlı namizəd isə 1938-ci il təvəllüdlü Oqtay Zeynalovdur. 86 yaşlı namizəd 38 saylı Gəncə birinci seçki dairəsində rəqibləri ilə yarışacaq.

Bəs seçki prosesi bitdikdən sonra Milli Məclisin sədri və müavinləri necə seçiləcək?

Növbəti çağırış Milli Məclisin ilk iclasında parlament sədri seçilir. Milli Məclisin sədri deputatlar sırasından gizli (elektron sistemindən istifadə etməklə) səsvermə yolu ilə seçilir. Elektron sistemdən istifadə zamanı nasazlıq yarandıqda gizli səsvermə bülletenlər vasitəsilə keçirilir.

Milli Məclisin sədri vəzifəsinə namizədliyi deputatlar irəli sürə bilərlər. Hər deputat yalnız bir namizəd göstərə bilər. Öz namizədliyinə etiraz müzakirəsiz və səsverməyə keçirilmədən qəbul edilir.

Səsverməyə azı 10 deputatın tərəfdar çıxdığı namizədlər buraxılır. Namizədlər çıxış edə və deputatların suallarına cavab verə bilərlər. Namizədlər üzrə müzakirələr keçirilir. Milli Məclisin sədrliyinə hər namizəd Hesablayıcı Komissiyanın tərkibinə əlavə bir deputat daxil edə bilər.

Gizli səsvermə nəticəsində azı 63 deputatın səsini almış namizəd Milli Məclisin sədri seçilir. Namizədlərin heç biri azı 63 səs almadıqda, Milli Məclisin Daxili Nizamnaməsinin 27-ci maddəsində nəzərdə tutulmuş qaydada səsvermənin ikinci dövrəsi keçirilir. İkinci dövrədə də heç bir namizəd 63 səs ala bilməzsə, Milli Məclis sədrinin birinci müavininin seçkiləri keçirilir.

Milli Məclis sədrinin seçilməsi parlamentin qərarı ilə rəsmiləşdirilir. Bu qərarı Milli Məclisin iclasına sədrlik edən imzalayır. Qeyd edək ki, növbəti çağırış Milli Məclisin ilk iclasını ən qocaman deputat açır və ilk iclası o aparır.

Milli Məclis sədrinin müavinləri isə Milli Məclisin deputatları sırasından açıq səsvermə yolu ilə seçilir. Vitse-spiker vəzifəsinə namizədliyi ilk növbədə Milli Məclisin sədri, sonra isə deputatlar irəli sürə bilərlər. Milli Məclisin sədri və hər deputat parlament sədrinin birinci müavini və müavini vəzifələrinin hər birinə yalnız bir namizəd göstərə bilərlər.

Öz namizədliyinə etiraz müzakirəsiz və səsverməyə keçirilmədən qəbul edilir. Səsverməyə azı 7 deputatın tərəfdar çıxdığı namizədlər buraxılır. Namizədlər çıxış edə və deputatların suallarına cavab verə bilərlər. Namizədlər üzrə müzakirələr keçirilir. Açıq səsvermə nəticəsində azı 63 deputatın səsini almış namizəd Milli Məclis sədrinin müavini seçilir.

Namizədlərin heç biri azı 63 səs almadıqda, Daxili Nizamnamənin 27-ci maddəsində nəzərdə tutulmuş qaydada səsvermənin ikinci dövrəsi keçirilir. İkinci dövrədə də heç bir namizəd 63 səs ala bilməzsə, başqa namizədlər göstərilməklə yeni seçkilər keçirilir.

Spikerin müavinlərinin seçilməsi Milli Məclisin qərarı ilə rəsmiləşdirilir.

Qeyd edək ki, hazırda Milli Məclisin sədri Sahibə Qafarova, sədrin birinci müavini Əli Hüseynli, müavini isə Fəzail İbrahimlidir. Sədrin digər müavini Adil Əliyev isə bir müddət əvvəl Suraxanı rayonuna icra başçısı təyin edildiyi üçün onun mandatı ləğv edilib.

Yeni Azərbaycan Partiyası (YAP) Sahibə Qafarova və Əli Hüseynlinin namizədliyini yenidən irəli sürüb. Onlar müvafiq olaraq 102 saylı Şəmkir şəhər və 53 saylı Yevlax-Mingəçevir seçki dairələrindən namizəddir. Fəzail İbrahimlinin namizədliyi isə Vətəndaş Həmrəyliyi Partiyası tərəfindən 73 saylı Masallı-Cəlilabad seçki dairəsindən irəli sürülüb.

Yayılan son məlumatlara görə, seçkilərdən sonra Milli Məclisin rəhbərliyində bir sıra dəyişikliklər olacaq. Milli Məclisin sədri vəzifəsinə yenidən Sahibə Qafarovanın namizəd olacağı gözlənilir. Sədr müavinləri postunda isə tamamilə yeni simaların olacağı bildirilir.

**“Hazırda seçki özünün çox qızğın mərhələsinə qədəm qoyub. Belə ki, görüşlər keçirilir, buradan da hiss olunur ki, hansı namizədə dəstək, xalq tərəfindən xoş münasibət var”. Bu sözləri “Yeni Müsavat”a açıqlamasında Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev deyib. Onun sözlərinə görə, əsas odur ki, seçkilər azad, ədalətli, demokratik və sakit tərzdə, gərginlik olmadan keçirilsin**: “Çünki ölkəmizdən kənarda, eləcə də ölkə daxilində elə qüvvələr var ki, onlar bu seçki prosesinə ləkə yaxmağa çalışırlar. İstəyirlər hansısa gərginlik olsun ki, sonradan da bundan istifadə etsinlər. Çünki qarşıda COP29 kimi böyük, mötəbər tədbir var. Beləliklə, indiki halda çalışmalıyıq ki, sakit və normal şəkildə seçkilər keçirək, yerlərdə görüşlər zamanı xoşagəlməz hallar olmasın. Hələlik hesab edirəm ki, yerlərdə seçki prosesi normal şəkildə keçir, heç bir maneçilik yoxdur, namizədlər istədikləri kimi görüşlər keçirirlər.

O ki qaldı kimin spiker və ya spiker müavini seçilməsinə, bu, növbəti mərhələdə olacaq. Bu baxımdan biz namizədlər hazırda indiki prosesə fokuslanmışıq. O da məlumdur ki, çoxluq qazanan partiya öz namizədini verəcək. İndidən də aydın görünür ki, Yeni Azərbaycan Partiyasının (YAP) gücü, potensialı digər partiyalardan çoxdur. Bu baxımdan hesab edirəm ki, spiker YAP-dan olacaq, digər vəzifələr isə ümumi razılıq əsasında həll olunacaq".

Yeri gəlmişkən, Mərkəzi Seçki Komissiyası son iclasında quruma daxil olmuş müraciətlərə baxıb.

Azərbaycan Ümid Partiyası tərəfindən 121 saylı Laçın seçki dairəsindən irəli sürülən Ağayev Elxan Şükür oğlunun, 35 saylı Xətai üçüncü seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Sərkərnamazova Könül Əhməd qızının, 7 saylı Yasamal üçüncü seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Fərəcov Aqşin Akif oğlunun, 41 saylı Gəncə-Samux-Goranboy seçki dairəsi üzrə namizədliyi Azərbaycan Ümid Partiyası tərəfindən irəli sürülmüş Əsgərov Aqşin Cahangir oğlunun, 45 saylı Sumqayıt dördüncü seçki dairəsi üzrə namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş İsrafil İkram İsrayıl oğlunun, 83 saylı Beyləqan seçki dairəsi üzrə Azərbaycan Ümid Partiyası tərəfindən irəli sürülmüş Vəliyev Əli Xanəli oğlunun müraciətlərinə baxılıb. Onlar namizədliklərinin qeydə alınmaması ilə bağlı Dairə Seçki Komissiyasının qərarlarından şikayət ediblər.

MSK müraciət edənlərin heç birinin şikayətini qəbul etməyib və namizədliklərinin qeydə alınması barədə qərarları qüvvədə saxlayıb.

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**

# Hidayət Heydərova “Şöhrət” ordeni və 400 min manat mükafat

## Olimpiyaçılarımız orden və medallarla təltif olundular



**Prezident İlham Əliyev Azərbaycan Milli Olimpiya komandası üzvlərinin təltif edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, XXXIII Paris Yay Olimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə Azərbaycan idmançıları Heydərov Hidayət Minayət oğlu və Kotsoiev Zelim Oleqoviç “Şöhrət” ordeni ilə təltif ediliblər.

Təltif edilənlər sırasında onların məşqçiləri də var.

**“Şöhrət” ordeni ilə**

Məmmədov Elxan Əbülfəz oğlu

Trautmann Riçard.

**1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni** - Həsənov Tərlan Əliheydər oğlu.

**2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni** - Alfonso Dominguez Loren Berto Berto, Maqomedov Qaşim Maqomed oğlu.

**3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni:** Cəfərov Həsrət Valeh oğlu, Qiorqi Meşvildişvili Kaxa oğlu, Maqomedov Maqomedxan Maqomedoviç.

**3-cü dərəcəli “Əmək” ordeni ilə**:

Abdullayev Məmməd Kamil oğlu

Əliyev Həsən Həsən oğlu

Qazyumov Xetaq Ruslanoviç

Məmmədov Anar Vahid oğlu

Paşayev Niyaməddin Vaqif oğlu

Roque Otano Pedro

Tarakanov Aleksandr Petroviç

**“Tərəqqi” medalı ilə**:

Qokşelidze Georgi

Əliyev Əli İman-Murzayeviç.

Prezidentin digər sərəncamı əsasən, Yay Olimpiya Oyunlarında əldə etdikləri yüksək nəticələrə görə idmançılar və onların məşqçiləri üçün mükafatların məbləği müəyyən edilib:

- birinci yeri tutan hər bir idmançıya 400 000 (dörd yüz min) manat, onun məşqçisinə 200 000 (iki yüz min) manat;

- ikinci yeri tutan hər bir idmançıya 200 000 (iki yüz min) manat, onun məşqçisinə 100 000 (yüz min) manat;

- üçüncü yeri tutan hər bir idmançıya 100 000 (yüz min) manat, onun məşqçisinə 50 000 (əlli min) manat.

Bundan başqa, sərəncama əsasən, ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilib:

- birinci yeri tutan hər bir idmançıya 200 000 (iki yüz min) manat, onun məşqçisinə 100 000 (yüz min) manat;

- ikinci yeri tutan hər bir idmançıya 100 000 (yüz min) manat, onun məşqçisinə 50 000 (əlli min) manat;

- üçüncü yeri tutan hər bir idmançıya 50 000 (əlli min) manat, onun məşqçisinə 25 000 (iyirmi beş min) manat;

- Komandanın baş məşqçisi - idman növü üzrə ən yüksək nəticə göstərmiş idmançıya görə şəxsi məşqçinin aldığı məbləğ qədər (bir dəfə).

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin maliyyə idarəsinə sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

YENİ MÜSAVAT
N 143 (8516) 14 avqust 2024



# Seyran Səxavətə oxşayan prezident

**Zamin HACI**
zaminhaci@gmail.com

**Xarici mətbuatın informasiyasına görə, İran prezidenti Pezeşkiyanın yanında müşavirə olub, İsraildən qisas almaq üçün Azərbaycanı, ya da İraqı vurmaq təklif edilib. Guya bizim ərazidə İsrailin hansısa hərbi obyektləri varmış.**

Açıq-aşkar dezinformasiyadır, qardaş İranla aramızı vurmaq istəyirlər. Xarici mətbuatdan son illər o qədər yalan-palan xəbərlər oxumuşuq ki, gərək heç buna da təəccüblənməyək. Üstəlik, İran yaxşı bilməlidir, İsrailin Azərbaycanda hərbi obyektləri var, ancaq Güney Azərbaycanda.

Hər halda, İranın başına nə fəlakət gəlibsə, öz içindən gəlib. Uzun illər totalitar-dini rejim qursan belə durum yaranmalıdır. Orada molla rejimini sevməyən, onun yıxılmasını istəyən saysız-hesabsız adamlar, qruplar, təşkilatlar var və bunun isbatı üçün "Turana və İsrailə" (məsəlin əslində "İran-Turan"dır, lakin hazırkı kontekstdə dəyişməyə məcburam) getməyə ehtiyac qalmır. Hər hansı ölkədə sabitlik üçün xalqın da hökuməti dəstəkləməsi, arxasında durması vacibdir.

Ancaq sifətdən bizim hörmətli xalq yazıçısı Seyran Səxavətə dəhşətli dərəcədə oxşayan yeni İran prezidenti Pezeşkiyan düşmənləri daxildə və sistemin özündə axtarmaq yerinə başqa yerlərdə axtarmaq istəyirsə, buyursun. Onsuz regionda "xarici düşmənlər" konsepsiyası qədimdən dəbdədir. Kimin qarnı ağrısa, xaricilərdən görübdür. Ta yeyib-içdiyinə baxmayıbdır. Məsələn, Stalinin vaxtında camaatı hətta "Yaponiyanın casusu" adıyla güllələyirdilər.

Casus demişkən, hazırda İran zindanında bir azərbaycanlı gənci "şpion" adıyla saxlayırlar, halbuki o yazığın günahı hansısa iranlı qıza aşiq olması, onunla məktublaşması və qızın ardınca Tehrana getməyidir. Əsl eşq dastanıdır, lap kefin istəsə əsasında film çəkmək olar. Prodüser də olsun Bəsic. Ya da Ettelaat. Bəlkə Sepah? Hər halda, İranda kinoya məhəbbət böyükdür. Cəfər Pənahidən soruşun, sizə danışsın. Ya da Məhəmməd Rəsuloffdan. Nə bilim, Möhsün Mahmalbafdan. Burada da variantlarımız çoxdur, maşallah. Sözgəlişi, çox maraqlıdır ki, o boyda senzura şəraitində yenə İran kinosu çəkilir, festivallara gedir, bizdə isə sanki kinoya dövlət dəstəyi var, ancaq kino çəkilmir.

Ümumiyyətlə, son olimpiadada xarici idmançılar respublikamıza xeyli medal qazandıranda mənim ağlıma gəldi, gərək biz hökumətə minnətdarlıq teleqramı vuraq. Həmişəkindən daha intensiv şəkildə. Çünki hökumət istəsə bizim hamımızı qovub yerimizə xarici millət gətirə bilər. Buna haqqı çatır. Əlimizdən heç zad gəlmir, qoyasan elə ağlaşma quraq. Biri uşaq pulu istəyir, başqası pensiya, üçüncüsü hətta seçkidə iştirakçı olmaqdan dəm vurur. Adama deyərlər axı sən kimsən? Nə cürət edərək belə təxribatçı fikirlərə düşürsən? Ayıb olsun. Utanın. Hətta kimin əcəli çatıbsa ölsün.

Ən çox fəxr elədiyimiz ordu idi, oradan da son vaxtlar eyzən pis xəbərlər alırıq. O generalı tutdular, bu general yeyintiyə yol verib, filan polkovnik evləri satıb və sairə və ilaxır. Sanki kimlərsə ordunun qalxan nüfuzundan qorxur, onu gözdən salmaq istəyir. Əlbəttə, kim olacaq, xarici qara qüvvələr!

Yeganə olaraq qüsursuz işləyən hökumətimizdir, Allah onu bizə çox görməsin.

Təsadüfə bax, nöqtəni qoyub məhəllə dükanından su almağa getdim, gördüm orda iki fəhlə var, görkəmlərindən pakistanlılara, ya da banqladeşlilərə oxşayırdılar. Bəlkə hindistanlı idilər (burada da variantlarımız çoxdur, namxuda). Onların azərbaycanlı fəhlə yoldaşı guya zarafatla üzlərinə söyürdü, yalnız gülümsəyirdilər. Çox optimist insanlar idi. Bizim yerimizə yaşamağa layiq.



# Kanada XİN rəhbəri Bakıdakı səfirini saymadı - Coli müəmması

## Bu ölkənin baş diplomatı münaqişənin həllində Ermənistana dəstək üçün Azərbaycana təzyiq göstərməyə davam edəcəyini açıqlayıb - halbuki bir ay qabaq Kanadanın elçisi Bakıda demişdi ki...

**Fransa ilə yanaşı, "ermənidən artıq erməni olan" dövlətlərin sırasında Kanada da var". Kanadanın xarici işlər naziri Melani Coli isə anti-Azərbaycan isterikanın başında durur. "Kanada Ermənistanla münaqişənin danışıqlar yolu ilə həllində vicdanla iştirak etmək üçün Azərbaycana təzyiq göstərməyə davam edəcək". "Yeni Müsavat" xəbər verir ki, bunu Kanadanın xarici işlər naziri Melani Coli erməni diasporunun ən böyük təşkilatı sayılan "Ay Data"nın nümayəndələri ilə görüşündə deyib. Melani Coli "Ermənistanla münaqişənin danışıqlar yolu ilə, dinc və siyasi yolla həllində, saxlanılan erməni məhbusların azad edilməsində, ərazi bütövlüyünə hörmətlə yanaşmaq üçün Azərbaycana təzyiq göstərməyə davam edəcək", - o qeyd edib.**

Melani Coli anti-Azərbaycan mövqeyi ilə seçilən şəxsdir. Azərbaycanın öz torpaqlarını azad etməsindən sonra ölkəmizlə bağlı təxribatçı çıxışlar etməyə başlayan nazir ötən il dəstək nümayişi kimi Ermənistana səfər eləmişdi. Maraqlı məqam isə odur ki, dünyada baş verən ciddi münaqişələrə reaksiya verməyən, əsasən neytral qalmağı üstün tutan Kanada hökuməti Azərbaycana münasibətdə "prinsipiallığ" ilə seçilir. Tarixən müstəmləkə olan bir dövlətin indi fransızların neokolonialist siyasətinə qarşı qətiyyətli mövqe tutan Azərbaycan əleyhinə davamlı qərəzli münasibəti diqqət çəkir. Ehtimallara görə, Fransa neçə müddətdir ki, Kanadanı fransızdilli Kvebek əyalətində separatizmə dəstək vermək hədəsi ilə şantaj edir. Bu səbəbdən Kanada Fransanın əlində oyuncaq dövlətə çevrilir və Kvebekdə fransız separatizmi qızışmasın deyə onun sifarişlərini fransız qarışığı olan Melani Coli vasitəsilə yerinə yetir.

Yeri gəlmişkən, Prezident İlham Əliyev ötən ay - iyulun 1-də Kanadanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kevin Hamiltonun etimadnaməsini qəbul edib. Səfir Kanadanın həmişə Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bildirərək, ədalətli, əhatəli və daimi sülh müqaviləsi üzərində fəal iş aparıldığından məlumatlı olduğunu deyib. Prezident İlham Əliyev sülh müqaviləsindən danışarkən deyib ki, Azərbaycanın başlıca şərti Ermənistanın konstitusiyasının dəyişdirilməsidir. "Çünki onun tərkibində Azərbaycana qarşı ərazi iddiaları var və bu, baş verməyənə qədər sülh sazişi imzalanmayacaq".

Qayıdış hüququ ilə ələqədar səfirin şərhinə cavabında Azərbaycan Prezidenti bildirib ki, qayıdış hüququ qarşılıqlı şəkildə təmin olunmalı, o cümlədən də Qərbi Azərbaycan İcmasının nümayəndələrinə şamil edilməlidir. Bu xüsusda dövlət başçısı keçən yüzillikdə, sonuncusu 1988-ci ildə olmaqla müxtəlif mərhələlərdə köklü Azərbaycan əhalisinin indiki Ermənistan ərazisindən etnik təmizləməyə məruz qaldığını və onlara aid maddi-mədəni irsin tamamilə dağıdıldığını qeyd edib. Görünür, kanadalı nazir Azərbaycan Prezidentinin onun kurasiyasında olan diplomata ətraflı şərhinə rəğmən hələ də birtərəfli və ermənipərəst mövqeyindən əl çəkmək istəmir. Üstəlik, onu saymır da...

**Siyasi ekspert Azad Məsiyevin "Yeni Müsavat"a bildirdiyinə görə, Cənubi Qafqazda ABŞ və Rusiya savaşı gedir. Onun təhlili ondan ibarətdir ki, Vaşinqton öz oyunçularını bu regionda dövriyyəyə buraxmaqdadır:** "İstərsə Fransa, istərsə Kanada olsun, bu ölkələr ABŞ-ın oyunçularıdır. Azərbaycan isə kiminsə diktəsi ilə hərəkət edən dövlət deyil. Rəsmi Bakı Fransaya tutarlı cavab verdiyi üçün indi Kanada ortaya düşüb. Regionda aparıcı ölkə Azərbaycandır və heç bir oyunçunun əlində oyuncağa çevrilmək istəmir". Onun fikrincə, əslində söhbət Kanadadan deyil, onun vasitəsi ilə ABŞ-ın Azərbaycana təzyiqindən gedir. Amma politoloq hesab edir ki, bu təzyiq sadəcə siyasi xarakter daşıya bilər və Kanadanın hər hansı müdaxilə imkanları yoxdur.

**Siyasi şərhçi Ramiyə Məmmədova isə Kanadanın XİN rəhbərinin açıqlamasını iki cür izah edir:** "Birincisi, Türkiyə ilə yaxşı olmayan münasibətlərə cavab niyyəti daşıyır, ikincisi, ABŞ və Fransanın Ermənistan üçün istəklərini ifadə edir. Yada salım ki, bundan qabaq Kanada Ermənistanla sərhədimizə Kral Atlı Polis göndərib. Bu xidmət Avropa Birliyinin mülki missiyasının tərkibində fəaliyyət göstərir. Hərgah Kanada Avropa Birliyinin üzvü deyil və həmin müşahidə qrupuna qoşula bilməz. Amma NATO ölkəsi, Fransa və ABŞ-ın müttəfiqi kimi prosesdə iştirak edir və Ermənistana dəstəyini nümayiş etdirir. Ona görə də xarici işlər nazirinin həmin açıqlamasına təəccüb etməmdim".

**Ekspert bununla belə, güman etmir ki, Kanadanın təzyiqləri effektli olacaq**: "Azərbaycan müstəqil xarici siyasət yürüdür və indiyədək olan basqılara da diplomatiyamız sinə gərməyi bacarıb. Üstəlik, Kanada bizə nə edəcək ki?! Absurd olan budur ki, Coli münaqişənin vicdanlı həllindən danışır və bunun üçün Azərbaycana təzyiq göstərilməsindən dəm vurur. Axı sülhə əngəl yaradan da Ermənistandır, qanunvericilik aktlarında Azərbaycana qarşı ərazi iddialarını saxlayan da odur, torpaqlarımızı işğal edən də... Sanki Azərbaycan Ermənistan ərazilərinə işğalçı hücum edib. Yeni kanadalı nazir saxtakarlıq edib, yalan danışıb. Əslində adamı yandıran odur. Bizə qarşı haqsızlıq edilir. İşğalçı adı ilə çağırılmır, Coli kimilər bu böhtanı bizə yapışdırmağa çalışır. Məncə, diplomatiyamız bu məsələdə hücumlarını sürətləndirməlidir. Çünki postmünaqişə dövründə diplomatik müharibənin başlanacağı və Azərbaycana siyasi xarakterli hücumların olacağı şəksiz-şübhə doğurmurdu".

Onu da qeyd etmək lazımdır ki, Kanadanın Ermənistana dəstəyi, son illərdə, xüsusilə Nikol Paşinyanın ölkədə hakimiyyətə yiyələnməsindən sonra xeyli artıb. Məsələn, Robert Köçəryanın, Serj Sərkisyanın hakimiyyətdə olduqları dövrdə Kanada-Ermənistan əlaqələri indiki kimi deyildi. Əlaqələrin inkişafında, Kanadanın bugünkü ermənipərəstliyində Fransa amilinin mühüm rolu var. Kanadanın baş naziri, ölkənin fransızdilli əhalisinə aid olan Castin Trüdo Paşinyanın baş nazir seçilməsindən az sonra - 2018-ci il oktyabrın 7-12-də Beynəlxalq Frankofoniya Təşkilatının İrəvanda keçirilən XVII sammitində iştirak etmək üçün İrəvana səfərə gəlmişdi.

❑ **Emil SALAMOĞLU,
"Yeni Müsavat"**



# Azərbaycan yeni təhlükəsizlik formatında: "5+1"

## Mərkəzi Asiya ölkələri böyük güclərin haqsız basqılarına birlikdə cavab verməyi ən doğru seçim hesab edirlər və bu sırada Azərbaycanı özləri ilə birlikdə görməkdən məmnundurlar

**Azərbaycan Prezidenti İlham Əliyevin də Astanada iştirak etdiyi dövlət başçılarının sammitində Mərkəzi Asiya "beşliyi"nin (Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan) rəhbərləri regional təhlükəsizlik məsələlərini müzakirə ediblər.**

İlham Əliyev çıxışında dünyada artan təhdidləri yada salıb, deyib ki, bu vəziyyət ölkələr arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığı daha da gücləndirməyi tələb edir.

Bu kontekstdə İ.Əliyev ötən ay Qazaxıstanda keçirilən və Azərbaycanın da iştirak etdiyi "Birləşdik-2024" beynəlxalq əməliyyat-taktiki komanda-qərargah təlimini xüsusilə vurğulayıb.

"Mərkəzi Asiya ətrafında əsas dünya oyunçularının beynəlxalq fəaliyyəti son vaxtlar əhəmiyyətli dərəcədə artmışdı. Bölgə ölkələri bu çətin vəziyyətdə öz yollarını tapmağa çalışır, yaxın və uzaq qonşularla əlaqələr qurur. Rusiyadan tam ayrılmanın əsas bazarın itirilməsi və hərbi-siyasi vəziyyətin gərginləşməsi ilə nəticələndiyini başa düşmək bu cür addımları qeyri-real edir. Eyni zamanda Moskvanın regionda rolunun tədricən zəifləndilməsi istiqamətində addımlar atılır. Xüsusilə region ölkələrinin İranın cənub limanları, Transqafqaz və Yaxın Şərq vasitəsilə Qərb bazarlarına çıxması üçün alternativ logistika marşrutlarının axtarışı aparılır. Bu hadisələr fonunda Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev Mərkəzi Asiya ölkələrinin müdafiə birliyinin yaradılması təşəbbüsü ilə çıxış edib". "Yeni Müsavat" xəbər verir ki, bu barədə "Nezavisimaya qazeta" yazıb.

**Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev hesab edir ki, Mərkəzi Asiya dövlətlərinin müdafiə siyasəti sahəsində birləşməyə ehtiyacı var:** "Mərkəzi Asiyanın perimetri boyunca davam edən çətin hərbi-siyasi vəziyyət fonunda müdafiə siyasəti və təhlükəsizlik sahəsində əməkdaşlığa ehtiyac var. Regional təhlükəsizlik arxitekturasının yaradılması, o cümlədən Mərkəzi Asiya üçün təhlükəsizlik riskləri kataloqunun hazırlanması və onların qarşısının alınması tədbirləri xüsusi aktuallıq kəsb edir".

Sammitdə çıxış edən Özbəkistan prezidenti Şavkat Mirziyoyev "5+Azərbaycan" formatında regionda qarşılıqlı hərbi dəstək və əməkdaşlığın bütün aspektlərini əks etdirən yeni strateji sənədin - Regional təhlükəsizlik və sabitliyin təmin edilməsi Konsepsiyasının hazırlanmasını təklif edib.

Bu ilin iyul ayında Azərbaycan Silahlı Qüvvələri Xəzər dənizinin Qazaxıstan sahilində keçirilən "Birləşdik-2024" əməliyyat-taktiki komanda-qərargah təlimlərində iştirak edib. Orta Asiya ölkələrindən olan kursantların Azərbaycanın hərbi təhsil müəssisələrində hazırlanması da davam etdirilir və regionun müdafiə nazirlikləri ilə Azərbaycanın hərbi idarəsi arasında daimi qarşılıqlı əlaqə aparılır.

**"Man'o" Araşdırma Təşəbbüsləri Mərkəzinin direktoru Bəxtiyor Erqaşev "Nezavisimaya qazeta"ya deyib ki, Tokayevin təklifi çox güman ki, qlobal vəziyyətin gərginləşməsinə və dünya gücləri arasında qarşıdurmanın güclənməsinə reaksiyadır. Mərkəzi Asiya Rusiya, ABŞ, Çin, Avropa İttifaqı, Türkiyə və digər güclərin maraqlarının kəsişdiyi əsas regionlardan birinə çevrilib. Amma ekspert hesab edir ki, Mərkəzi Asiya üçün təhlükələrin artmasına baxmayaraq, region ölkələri müdafiə ittifaqı yaratmağa hələ hazır deyil.** "Bölgədə bir çox məsələlər, o cümlədən sərhəd və gömrük məsələləri hələ də həllini tapmayıb və hətta Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT), Avrasiya İqtisadi İttifaqı (AİI) və Türk Dövlətləri Təşkilatı (OTS) kimi birliklərlə bağlı fikir ayrılıqları mövcuddur. Regiondakı bütün ölkələr bu inteqrasiya birliklərinin mövqelərini bölüşmürlər. Bu baxımdan, Mərkəzi Asiyada müdafiə ittifaqı ideyasının yaxın gələcəkdə həyata keçiriləcəyinə ciddi şübhələrim var", - deyə Erqaşev bildirib.

Bəs bu təhlükəsizlik formatının perspektivi nə ola bilər?

**Sabiq maliyyə naziri, siyasi və iqtisadi məsələlər üzrə ekspert Fikrət Yusifov "Yeni Müsavat"a bildirdi ki, Mərkəzi Asiya ölkələri ilə Azərbaycan bir neçə platformada birgə fəaliyyət göstərirlər:** "Mərkəzi Asiya məkanı Avrasiyanın ən əsas regionlarından biridir. Elə bu səbəbdəndir ki, ABŞ və Çin başda olmaqla, dünyanın bütün böyük güclərinin bu regionda xüsusi maraqları var. Görünən budur ki, böyük güclərin bir çoxunun XVIII əsr işğalçılıq və talançılıq təfəkkürü hələ də dəyişməyib və onlar bu gün də Mərkəzi Asiya ölkələrinə resurs bazarı kimi baxmaqda davam edirlər. Bu isə Mərkəzi Asiya ölkələrinin hökumətlərini ciddi düşündürür və onlar çox haqlı olaraq belə çirkin baxışların layiqli cavabını verə biləcək gedişlər etməyə cəhdlər göstərirlər.

Sammitdə çıxış edən Özbəkistan prezidenti Şavkat Mirziyoyevin "5+Azərbaycan" formatında regionda qarşılıqlı hərbi dəstək və əməkdaşlığın bütün aspektlərini əks etdirən yeni strateji sənədin - Regional təhlükəsizlik və sabitliyin təmin edilməsi Konsepsiyasının hazırlanmasını təklif etməsi də təsadüfi gediş deyil. Region ölkələri böyük güclərin haqsız basqılarına birlikdə cavab verməyi ən doğru seçim hesab edirlər və bu sırada Azərbaycanı özləri ilə birlikdə görməkdən məmnundurlar. Hesab edirəm ki, dünyada baş verən mürəkkəb siyasi və hərbi hadisələr dönəmində belə bir birliyin yaranması hər bir üzv dövlət üçün yeni bir dəstək platformasının yaranması demək olacaq".

**VI Çağırış Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Aydın Mirzəzadə Azərbaycanın belə sammitdə iştirak etməsinin dövlət kimi dünyada önəmini bir daha sübut etdiyini qeyd etdi:** "Azərbaycan Mərkəzi Asiya regionunda yerləşməsə də, artıq neçənci dəfədir ki, Mərkəzi Asiya ölkələrinin dövlət başçılarının sammitinə qonaq kimi dəvət olunur. Bu həmin regionun Azərbaycanla əməkdaşlığa verdiyi qiymətdir. Eyni zamanda bu həmin ölkələrin siyasi dairələrinin rəhbərlərinin Azərbaycan Prezidentinin fəaliyyətinin dünyada və regionda təhlükəsizliyin təmin edilməsində, problemlərin həll olunmasında oynadığı rola verdikləri qiymətdir. Cənab Prezidentin təklif etdiyi "5+1" formatı bu gün regionun, o cümlədən dünyanın maraqlarına cavab verir. Mərkəzi Asiya mürəkkəb bir regiondur. Ancaq bununla belə, həmin regionun liderlərinin əməkdaşlıqda maraqlı olmaları, buna meyl etmələri bir çox problemlərin qarşısını alır. Eyni zamanda həmin region Azərbaycanla əməkdaşlığın əhəmiyyətinə xüsusi fikir verir. Azərbaycan dünyaya bir çıxış qapısıdır. Ölkəmiz özünün imkanları ilə Mərkəzi Asiya ölkələrinin imkanlarını birləşdirməyə meyllidir. Azərbaycanın dövlətçilik təcrübəsi, qonşu dövlətlərlə münasibətlər qurmaq təcrübəsi həmin region dövlətlərinin diqqətini cəlb edir. 5 ölkədən 4-ü türkdilli dövlətlərdir. Tacikistan da bu formatda fəal iştirak edir. Bu 5 ölkədən hər biri ilə Azərbaycanın çox sıx əlaqələri var. Bunların birlik planları bütün sahələri əhatə edir. İlk növbədə bu ölkələrin xalqları birgə olmaq sosial sifarişini verirlər. Təhlükəsizlik, əməkdaşlıq modeli bir çox aktual, fundamental məsələləri özündə ehtiva edir. Bu birgə layihələrin həyata keçirilməsi, iqtisadi əməkdaşlıq, humanitar sahələrdə sıx əlaqələrin qurulması, mədəniyyət, incəsənət sahələrində əməkdaşlıq deməkdir, bir-birinin uğurlarına sevinmə məsələsidir. Bu sahələr istər-istəməz təhlükəsizlik məsələlərini öndə saxlayır. 5 ölkə və üstəgəl Azərbaycan birgə hərbi-texniki sahədə də fəaliyyət göstərməyə çalışırlar. Bu əməkdaşlıq regionun bu gününün və sabahının təmin edilməsində olduqca vacib bir məsələdir. Həmçinin bu əməkdaşlıq dünyanın digər regionları üçün də nümunə rolunu oynaya bilər".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# İran konsulundan hədə

## Morteza Abedin Varamin:

## "Ukrayna münaqişəsi erməni xalqı üçün bir növ dərs olmalıdır"




**Sünik şəhərinin inzibati mərkəzi olan Qafan şəhərində İran konsulluğu 2 ildir ki, fəaliyyət göstərir.**

Publika.az xəbər verir ki, baş konsul Morteza Abedin Varamin "Sputnik Ermənistana" müsahibəsində konsulluğun vəzifələri, Ermənistan-İran münasibətləri və İranın Cənubi Qafqazdakı rolu barədə danışıb.

O, "Qərb ölkələri Sünikə ciddi maraq göstərirlər... Onları bura cəlb edən nədir" sualına cavab verərkən Ukraynanı nümunə göstərərək, Ermənistanı hədələyib.

"Bu suala onlar özləri cavab verməlidirlər. Sünik bizim üçün önəmlidir, çünki bu erməni bölgəsi İranla həmsərhəddir və bizim Ermənistanla çoxəsrlik əlaqələrimiz var. Bu da sizə sual olmalıdır - niyə bura gəlirlər, yerli işlərə qarışırlar, Sünikdə möhkəmlənməyə çalışırlar? Bu suala mütləq cavab almalısınız. Biz bu ölkələrə deyirik ki, Ermənistana imkan verin ki, öz yolu ilə getsin, qarışmayın. Ermənistan müstəqil dövlətdir və bu müstəqilliyə hörmət edilməlidir. Heç kim ona kiminlə dostluq qurmalı və kiminlə dostluq etməməli olduğunu deməməlidir. Ermənistan isə öz yolu ilə getməlidir. Ukrayna münaqişəsi erməni xalqı üçün bir növ dərs olmalıdır", - konsul deyib.

YENİ MÜSAVAT
N 143 (8516) 14 avqust 2024

# “Pul ver, əsgərliyə getmə...”- alternativ hərbi xidmətlə bağlı ilginc iddialar

## Gürcüstanda hərbi xidmət müddəti qısaldıldı; **ekspert:** “100 çağırışçı əvəzinə, 10-20 peşəkar zabit lazımdır”

**Gürcüstanda hərbi xidmət müddəti qısaldılacaq. “Müdafiə haqqında” qanuna hazırlanmış dəyişikliklərə əsasən, bu, xidmət növündən asılı olacaq:**

6 ay - döyüş bölməsində xidmət, 8 ay - mühafizə və ya yardımçı dəstədə xidmət, 11 ay - kiçik komandanlıq vəzifələrində və əvvəlcədən müəyyən edilmiş ixtisaslar üzrə xidmət. Eyni zamanda çağırışçılar yalnız Müdafiə Qoşunlarında xidmət edəcək və bunun üçün əmək haqqı alacaqlar və onların iş yeri saxlanılacaq.

Qeyd edək ki, Gürcüstanda köhnə qaydalarla hərbi xidmətə sonuncu çağırış başlayıb. Payız çağırışı avqustun 5-dən dekabrın 28-dək aparılacaq. Ümumilikdə 18 yaşından 27 yaşa qədər olan 2,9 mindən çox şəxs hərbi xidmətə çağırılacaq, onlardan yalnız 900 nəfəri müdafiə qoşunlarında xidmət edəcək. Xidmət müddəti 12 aydır. Artıq 2025-ci il yanvarın 1-dən isə çağırışçılar yalnız “Milli Hərbi Xidmət” adlandırılacaq hərbi xidmətə göndəriləcək.

Azərbaycanda hərbi xidmətin qısaldılması ilə bağlı fikirlər səsləndirilir. Hətta Türkiyədəki kimi bədəlli əsgərliyin formalaşdırılması istiqamətində irəli sürülən təkliflərin sayı az deyil. Qarabağ işğaldan azad olundu və ordumuz gündən-günə inkişaf edir. Lakin hərbçilər arasında intihar, xəstəlikdən ölmə, silahdan ehtiyatsız davranma halları müşahidə olunur. Ümumi problemləri nəzərə aldıqda, Azərbaycanda hərbi xidmət müddəti qısaldıla bilərmi?

**“Bakı” Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov “Yeni Müsavat”a deyib ki, Türkiyədə müəyyən ödəniş müqabilində xidmətə getməmək istəməyənləri 1 aylıq təlimə aparırlar və həmin müddətdə silahla davranmanı öyrədirlər:** “Türkiyədə 3 aylıq təlim də var. Pul ödəməklə 1 il, il yarım vaxtını itirməyib işlərinlə məşğul olursan. Türkiyədə məşhur futbolçular ödəniş edirdilər və 1 ay müddətində təlim keçib xidmətə getmirlər. Azərbaycan uzun illər müharibə şəraitində olduğundan alternativ hərbi xidmətə keçid müzakirəyə çıxarılmırdı. 44 günlük Vətən müharibəsi ilə torpaqlarımızın işğalına son qoyuldu. İndi alternativ hərbi xidmətə keçidlə bağlı problem yoxdur. Onsuz da hər il minə yaxın Azərbaycan vətəndaşı müxtəlif yollarla xidmətdən yayınır. Bu baxımdan, alternativ xidmətlə bağlı qanun qəbul edilməlidir. Alternativ xidmət keçənlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Səhiyyə Nazirliyinin tabeliyindəki qurumların sərəncamına keçirlər. Dini inanclarına, cinsi oriyentasiyası, baxışlarına, iradəsinə görə həqiqi xidmət keçmək istəməyənlərin alternativ xidmət keçmələrinə şərait yaradılmalıdır ki, Azərbaycana qarşı iradlara da son qoyulsun. Misal üçün, onlar hərbi hospitallarda, tikinti, rabitə hissələrində qulluq edə bilərlər. Və ya hər hansı bir hərbi hissədə təmizlik, ya da aşpazlıq işlərinə baxa bilərlər”.



**Natiq Ələsgərov deyib ki, pul qarşılığında orduya getməmək praktikası dünyanın bir çox ölkəsində var:** “Keçmiş SSRİ-nin bəzi ölkələrində də bu praktika var. Azərbaycanda da "Alternativ xidmət haqqında" Qanuna Milli Məclisdə baxılmalı və müvafiq qərar qəbul edilməlidir. Əslində alternativ xidmətin şərtləri həqiqi hərbi xidmətdən daha ağırdır. Alternativ xidmətlə bağlı müvafiq komitə və güc strukturları bu məsələdə bir qədər ləngliк nümayiş etdirir. Əslində alternativ xidmət tətbiq etməklə bir neçə məqsədə çatmaq olar. Bu gün orduda xidmət etmək istəməyənlər bir yol tapıb yayınırlar. Bu işlərdən dəllallar və müvafiq vəzifə sahibləri qazanırlar. Bu sistem tətbiq olunsa, qazanan dövlət olacaq. Xidmətə getmək istəməyən, özünü başqa sahədə görən də gedib orada çalışacaq, uğur və pul qazanacaq. Bu gün ermənilər bu yöndə eksperiment aparırlar. Ermənistanda korrupsiya və rüşvətxorluq halları var. Onlar vəziyyətdən çıxış kimi dünya praktikasına müraciət ediblər və bu, normal haldır. Amma nə etsələr də, orduları yaxın 5-10 ildə zorla ayaq üstə dayana biləcək. Bu minvalla daha çox peşəkarları orduya cəlb etmək istəyirlər. Enində-sonunda bütün yük yenə də imkansızların üzərinə düşəcək, orduya kasıb övladları gedəcəklər".

**Mövzu ilə bağlı Sonxəbər.az-a danışan hərbi ekspert Üzeyir Cəfərov deyib ki, Azərbaycanda hərbi qanunvericilik təkmilləşdirilməli və müasirləşdirilməlidir:** “Qonşu Gürcüstanla bağlı məsələ illər əvvəl müzakirəyə çıxarılmışdı. Amma əfsus ki, bu vaxta qədər parlamentdə bu məsələni qaldıran olmadı. Torpaqlarımız işğaldan azad olunub. Amma alternativ xidmət haqqında qanun hələ də müzakirəyə çıxarılmır və qəbul olunmur. Sözügedən qanun ağıllı təklifdir. Biz qardaş Türkiyə modelini örnək götürürdük. Türkiyədə alternativ xidmət və xidmət müddətləri ilə bağlı maraqlı qanunvericilik var. Həmin qanunvericilik insanlara rahat şəkildə insanlara təhsil alma, müəyyən hallara görə şərait yaradır. Orada çağırışçılar özləri üçün alternativ xidmət seçə və hər hansı bir xəstəxana, yaxud sosial müəssisədə 2 il xidməti vəzifələrini yerinə yetirə bilərlər. Bu da hərbi xidmətə bərabər sayılır. Bütün güc strukturlarının tabeliyində hərbi qulluqçular var. Burada təkcə Müdafiə Nazirliyindən söhbət getmir”. **Ekspertin sözlərinə görə, ordumuzu gələcəkdə daha uğurlu və yüksək pillələrdə görmək istəyiriksə, peşəkarlara üstünlük verməliyik:** “Burada sual yaranır: çağırış sistemi necə olacaq? Çağırış sisteminin tənzimlənməsinin yolları var. Çağırış sistemi elədir ki, müəyyən müddət hazırlıq keçirsən və ehtiyatda gözləyirsən. Zamanla Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti həmin o şəxsləri təlimlərə cəlb edir ki, onların vərdişləri təkmilləşsin. Mən Gürcüstanda olan bu yenilikləri alqışlayıram. Sadəcə olaraq, qonşu dövlətdə ordu müasirləşmə və mobil standartlara hazırlanır. Bu gün çoxsaylı ordu saxlamağa ehtiyac yoxdur. Bu həm büdcəyə ağır yükdür, həm də hərbi xidmətə meyilli olmayan bir insanı ağır yükün altına salmaq deməkdir. Bu baxımdan müəyyən lazımsız ixtisaslar ixtisara salınmalıdır. 100 çağırışçı əvəzinə 10-20 peşəkar saxlamaq lazımdır. Büdcəyə bunun ciddi bir təsiri, yaxud yükü olmaz”.

**Hərbi ekspert Üzeyir Cəfərov isə bildirib ki, alternativ xidmətin qanuniləşdirilməsi peşəkar orduya keçidə heç bir şəkildə təsir edə bilməz:** “Peşəkar ordu quruculuğu illərdir ki, gündəmdədir və Azərbaycan peşəkar ordu sisteminə keçidə hazırdır. Getdikcə həqiqi hərbi xidmət keçənlərin sayı azaldılacaq, əvəzində müqaviləli, peşəkar hərbçilərə üstünlük veriləcək. Türkiyədə bu sistem oturuşub və effektiv ordu modeli ortadadır. Azərbaycanda da eyni sistem olacaq. 18 yaşına çatanlar müəyyən müddətdə hazırlıq keçəcək. Mümkündür ki, bir neçə həftə və ya ay ərzində silahla davranma və hərbə aid elementar bilgilər öyrədilsin. Peşəkar orduya getmək istəyənlər də özləri qərar verəcəklər. Alternativ xidmət keçmək istəyənlərə də imkanlar yaradılacaq. Peşəkar ordu ilə alternativ xidmətin olması bir-birinə heç bir halda mane ola bilməz”.

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

# Gənclər üçün vacib qərar - bu dəfə diqqət doktorantlara

## Gənclərin xarici ölkələrdə təhsil almalarına dair dövlət proqramına doktorantura pilləsi də əlavə edilib

**Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət Proqramının müddəti uzadılıb. Azərbaycan Prezidenti İlham Əliyev bununla bağlı sərəncam imzalayıb.**



“Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli 3163 nömrəli Sərəncamında dəyişiklik edilib.

Sərəncamla həmçinin gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair dövlət proqramına doktorantura pilləsi də əlavə edilib. Qeyd olunub ki, ali təhsilin doktorantura səviyyəsində ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqamətlərinə uyğun ixtisaslara üstünlük verilməsi Azərbaycan Respublikasında akademik potensialın gücləndirilməsini, elmi-texniki və intellektual potensialın artırılmasını, elmi yaradıcılığın inkişafını və elmi biliklərin yayılmasını təmin edəcək.

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fəlsəfə doktoru İlqar Orucov** “Yeni Müsavat”a açıqlamasında bildirib ki, sərəncam Azərbaycanın iqtisadi, mədəni, elmi inkişafına hədəflənib. Sosial baxımdan kifayət qədər böyük əhəmiyyətə malik dövlət proqramıdır: “Azərbaycan gənclərinin xaricdə təhsil almaları ilə bağlı birinci dövlət proqramının hazırlayan işçi qrupun üzvü olmuşam. O zaman dövlət başçısı strateji əhəmiyyət kəsb edən ixtisaslar üzrə kadr hazırlığının təmin olunması tapşırığını vermişdi.

Dünyanın təhsil tutumlu ölkələrinin nüfuzlu və yüksək reytinqə malik olan universitetlərində Azərbaycanın inkişafına töhfə verəcək kadr hazırlığı ilə bağlı müvafiq araşdırma, təhlillər aparıldı. Ölkəmizin gələcək inkişafını təmin edə biləcək 3500-dən çox gənc ən nüfuzlu ali təhsil müəssisələrinə göndərildi. O zaman gənclər bakalavr və magistratura pilləsində təhsil almalı idi. Cənab Prezidentin dövlət proqramına etdiyi dəyişikliklərlə bağlı sərəncamından sonra isə dövlətin proqramının mahiyyətində doktorantura çərçivəsində ali təhsil almaq imkanı əldə edildi.

Gənclərimizin xaricdə təhsil almasının xərclərinin Dövlət Neft Fondu tərəfindən qarşılanmasının böyük mahiyyəti var. Qarabağa pul buraxılır, bərpa işləri aparılır. Bu işlərin arasında dövlət başçısı belə bir qərar verir. Bu dövlət proqramı ilə müəyyənləşdirilmiş ixtisaslar və universitetlər birbaşa Azərbaycanın gələcəkdə lazım olacaq peşəkar kadrlarla təminatını həyata keçirəcək. Gələcək düşünən beyinlərin, intellektual və dayanaqlı, inkişafı təmin edəcək insanlarla bağlıdır.

Prezidentin hədəfində güclü Azərbaycan qurmaq dayanır. Minlərlə gəncimiz bu proqramdan yararlanacaq. Eyni zamanda elmi kadr potensialımız təmin ediləcək. Hər zaman narahat olmuşuq ki, Azərbaycan elmi məktəblərdən çıxır, qocalma tendensiyası var və s. Lakin bu qərar dövlətimizin gələcəyinə xidmət edəcək. Elmi tədqiqat sahəsinə yeni ruh gələcək".

❑ **Şahanə RƏHİMLİ,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 143 (8516) 14 avqust 2024

# 60 min 933 kilometr sərhədini Rusiya necə qorusun?

## Rusiyanın belə nəhəng məkanı qorumaq üçün insan və ya texnoloji resursları olub-olmadığı barədə müzakirələr...



**"Müharibə şəraitində olan ölkələr arasında sərhəd yoxdur, sadəcə, cəbhə xətti var... Ruslar bunu unudub, ukraynalılar isə unutmayıblar".**

Ayna.az xəbər verir ki, Şotlandiyanın Sent-Endryus Universitetinin strateji elmlər üzrə professoru Fillips Peyson Obrayenin bu fikirləri Ukrayna ordusunun Rusiya ərazisinə daxil olması ilə bağlı "The Atlantic" üçün yazdığı məqaləsində yer alır.

O, müharibə aparan bir ölkə olan Rusiyanın, xüsusən də Kursk vilayətinin sərhədinin niyə bu qədər müdafiəsiz olduğu sualına cavab axtararkən bir neçə nəticəyə gəlir: "Moskva, sadəcə olaraq, ABŞ və Almaniyanın sözünə çox inandı. Rusiya müdafiəsinin zəifliyi müəyyən mənada şokedicidir. Lakin Ukraynanın seçdiyi döyüş üsulu da tamamilə proqnozlaşdırılmayan idi. Müttəfiqlərin hərbi əməliyyatların Rusiya ərazisinə keçməsi ilə bağlı narahatlıqları Vladimir Putinə ciddi asimmetrik üstünlük təmin etdi. Ruslar Kiyevin tərəfdaşlarının Rusiya ərazisini hücumdan çəkindirdiyinə əmin olaraq demək olar ki, bütün qoşunlarını Ukrayna ərazisinə göndərə bildilər".

Şotlandiyalı ekspert məsələnin yalnız xarici siyasət tərəfini görür və o, tamamilə haqlıdır. Yalnız ABŞ və şəxsən prezident Co Bayden sayəsində müharibə yalnız Ukrayna torpaqlarında baş verirdi. Kiyevi həm Rusiya ərazisindəki hərbi-strateji hədəfləri öz silahları ilə vurmaqdan, həm də döyüşlərin Rusiya ərazisinə keçməkdən saxlayan məhz o və onun arxasında həmişə ağzına baxan və Ukraynaya silah verilməsində birinciliyi könüllü olaraq ona ötürən Olaf Şolz idi.

Bunun səbəbi "Polişinel sirri"dir - Ukraynanın müttəfiqləri Rusiyanın taktiki nüvə silahından istifadə etməsindən qorxurdu. Prezident Vladimir Putinin özü, daha çox onun sələfi Dmitri Medvedyev və Kremlin pullu ruporu - dövlət televiziya kanallarının təbliğatçıları zərbələr üçün Avropa və Amerika şəhərlərini seçməkdə sanki yarışırdılar.

Bununla belə, Rusiya hökumətinin özünün, onun sərhəd mühafizəsinə cavabdeh olan idarə və strukturlarının səmərəsizliyi də az əhəmiyyət kəsb etmir. Bu işdə kənar müşahidəçi kimi açıq mənbələrdən əldə edilən məlumatlara əsaslanaraq deyə bilərik ki, sərhəd onların yetərli miqdarda olmayan silahlarla işləməyi belə bilməyən gənc çağırışçı əsgərlərə həvalə edilib.

**Əslində Rusiyanın Ukrayna ilə sərhədi bir neçə əsas səbəbə görə həssasdır:**

- Rusiya sərhəd infrastrukturu qeyri-qanuni miqrasiyadan və qaçaqmalçılıqdan qorunmaq üçün sülh dövrü üçün (bununla belə, əvvəlki illəri böyük ölçüdə dinc adlandırmaq olar) uyğun idi və müharibə başlayandan bəri belə də qalıb. O, genişmiqyaslı hərbi işğalı dəf etmək üçün nəzərdə tutulmayıb. Xüsusi vasitələri və ixtisasları olmayan qeyri-kafi sayda çağırışçı əsgərlərə həvalə edilmiş sərhəd əslində çılpaq idi;

- Kreml Ukrayna ordusunun döyüş effektivliyini və motivasiyasını düzgün qiymətləndirmirdi. Xüsusilə öz ərazisində əks-hücum əməliyyatının uğursuzluğundan və Ukraynanın şərqindəki dağıdıcı döyüşlərdən sonra Ukrayna Silahlı Qüvvələrinin Rusiya ərazisində geniş hücum əməliyyatları keçirə biləcəyi gözlənilmirdi. Ona görə də Rusiya komandanlığı sərhəddə lazımi ehtiyat tədbirləri görməyib;

- Ukrayna Silahlı Qüvvələrinin Kursk vilayətində keçirdiyi hərbi əməliyyatın ilk üç günü maddi-texniki təchizatda problemlərin mövcudluğunu, ordunun müxtəlif qolları arasında koordinasiyanı, zəif əlaqəni və resurslardan səmərəsiz istifadəni açıq şəkildə göstərdi. Bunun təsdiqi yük maşınlarının və ağır texnikanın kolonlarının magistral yol boyu açıq ərazilərdə hərəkət edən şəxsi heyətlə birlikdə məhv edilməsi olub;

- Sərhəd Xidməti, Xarici Kəşfiyyat Xidməti, Federal Təhlükəsizlik Xidməti və Müdafiə Nazirliyinin Baş Qərargahı ilə yanaşı, onların da qəfil işğala hazır olmadığı ortaya çıxdı.

Bu amillər birlikdə Rusiya sərhədinin gözlənildiyindən zəif olmasına və Ukraynanın yaxşı təşkil edilmiş və gözlənilməz hücumuna tab gətirə bilməməsinə səbəb oldu. Yeni Ukrayna Silahlı Qüvvələrinin Kursk vilayətinin sərhədinə keçməsi Rusiyanın genişmiqyaslı müharibəyə mütləq hazır olmadığını bir daha nümayiş etdirdi.

Amma Rusiya hüquq-mühafizə orqanlarının bütün bu uğursuzluqlarını Rusiya Federasiyası ilə ümumi sərhədləri olan ölkələr də görür və qiymətləndirir. Onların bir çoxu heç də dost ölkələr deyil və tamamilə hamısının Rusiya İmperiyasının və vaxtilə onlardan ərazi parçalarını ələ keçirmiş SSRİ-nin hüquqi varisinə ərazi iddiaları var və ya olub.

Gəlin coğrafi xəritəyə baxaq və aydınlaşdıraq: Rusiya Federasiyasının quru sərhədləri hansılardır və kimlərlə həmsərhəddir?

Düzünü desəm, Rusiya dövlətinin böyüklüyü insanı heyrətə gətirir. Hətta xəritədə belə, qorxu yaradır. Rusiya Federasiyası ilə həmsərhəd olan bütün dövlətlər ondan həm ölçüsünə, həm də əhalisinə görə bir neçə dəfə kiçikdir.

Beləliklə, Rusiyanın sərhədlərinin ümumi uzunluğu 60,933 km-dir (bunun 38,808 km-i dəniz sərhədləridir), Rusiyanın şimal və şərqdəki sərhədləri dəniz, cənub və qərbdə əsasən qurudur.

Ölkənin Qazaxıstan (7598,6 km), Çin (4209,3 km), Monqolustan (3485 km), Ukrayna (2245,8 km), Finlandiya (1325,8 km), Belarus (1239 km) ilə quru sərhədləri var. Qondarma Abxaziya (245,0 km), qondarma Cənubi Osetiya (74,0 km), Gürcüstan (Abxaziya və Cənubi Osetiya istisna olmaqla 561,0 km, onlarla birlikdə - 879,9 km), Estoniya (466,8 km), Azərbaycan (350 km), Litva (288,4 km ), Latviya (270,5 km), Polşa (236,3 km) km), Norveç (219,1 km), Şimali Koreya (39,4 km); Yaponiya (194,3 km) və ABŞ (49 km) ilə dəniz sərhədləri var.

İndi gəlin fikirləşək ki, Rusiyanın belə nəhəng məkanı qorumaq üçün insan və ya texnoloji resursları varmı? Kursk bölgəsində baş verən hadisələrə baxsaq, xüsusilə müharibə şəraitində, bu sualın cavabı aydın deyil.

Rusiya Federasiyası ilə həmsərhəd olan dövlətlər, əgər istəsə, onun ərazisinə keçə və mübahisəli əraziləri geri ala bilərmi? Bəs bu halda Rusiya Federasiyası nə edəcək? Müharibəyə gedəcək? Bu, mümkün deyil. Quterreşə şikayət edəcəkmi? Perspektivi yoxdur. Çünki Rusiyanın özü çoxdan BMT-ni əhəmiyyətsiz bir təşkilata çevirib və ən əsası, ona cavab verəcəklər: "Özün belə istədin".

❑ **"Yeni Müsavat"**

# Putinə görə ayıya güllə atmışdı, indi Kursku xilas etmək tapşırıldı

## Rusiya dövlət başçısı varisi olmağa ən real namizədə yeni görəv verdi



Aleksey Dyumin

**Rusiya prezidenti Vladimir Putin keçmiş mühafizəçisi, bu ilin mayında Dövlət Şurasının katibi təyin etdiyi Aleksey Dyuminə yeni görəv verib. Musavat.com Rusiya mətbuatına istinadən xəbər verir ki, Dyuminə Kurskdakı əməliyyatlara rəhbərlik tapşırılıb. Dyumin Kursk vilayətindəki əməliyyatlarda təhlükəsizlik qüvvələrinin və yerli hakimiyyət orqanlarının hərəkətlərini əlaqələndirəcək.**

Dyuminlə bağlı yayılan xəbərləri dəyərləndirən hərbi müxbir, Müdafiə Nazirliyi yanında İctimai Şuranın üzvü Aleksandr Sladkov Dyuminin Kursk əməliyyatına rəhbərliyi "əla xəbər" adlandırıb. "Dyumin hərbçidir, ordunun ən başında və xüsusi xidmət orqanlarında hörmətlidir. O, tez bir zamanda mühüm qərarlar qəbul etməyə başlayacaq", - deyə Sladkov yekunlaşdırıb.

Putin yenidən altı illik müddətə prezident seçildikdən sonra 51 yaşlı Dyumini əvvəl müdafiə sənayesinə nəzarət edən köməkçisi, sonra isə Dövlət Şurasının katibi vəzifəsinə təyin edib. Bundan əvvəl isə o, Tula qubernatoru olub.

**Sergey Markov hələ o vaxt Telegram-da belə yazıb:** "Rusiya elitası Dyuminin Dövlət Şurasının katibi təyin olunmasından məmnundur. Bu, Dyuminin Rusiyanın gələcək prezidenti olmasının təsdiqi, Putinin seçimidir".

Dyuminin adı, digərləri ilə yanaşı, uzun müddətdir ki, Rusiya siyasi elitası arasında spekulyasiyalara səbəb olub. Putinin 2020-ci ildə təklif etdiyi dəyişikliklərə əsasən, Rusiya regionlarının rəhbərlərini birləşdirən Dövlət Şurasının rolu ilk dəfə konstitusiyada təsbit edilib.

Dyumin 1972-ci ildə Rusiyanın qərbində, Kursk şəhərində anadan olub, evlidir və bir oğlu var. 2016-cı ildə Dyumin "Kommersant" qəzetinə bildirib ki, Putinin mühafizəçisi olduğu zaman Rusiya lideri dağ iqamətgahlarından birində istirahət edərkən ayını qorxutmaq üçün tapançasından istifadə edib.

Rusiyanın ən yüksək dövlət mükafatı olan "Rusiya Qəhrəmanı" mükafatını alan Dyumin 1995-ci ildə Kreml elitasının təhlükəsizliyini təmin edən Rusiya Federal Təhlükəsizlik Xidmətinə işə başlayıb və Putinin birinci və ikinci prezidentlik dövründə onu qoruyub.

"Mən prezidentin təhlükəsizliyini hər yerdə - Rusiyada və xaricdə təmin edən zabitlər qrupunun bir hissəsi idim", - deyə Dyumin bildirib.

"Hər səhər prezidentə əməliyyat hesabatları ilə bağlı məruzə ilə başlayırdı. Regionlar və fövqəladə hallar haqqında məlumatınız olmalıdır. Hərdən nazirə, region rəhbərinə tapşırıq verməli olurdum".

ABŞ Maliyyə Nazirliyi 2018-ci ildə Dyuminə sanksiya tətbiq edərək bəyan edib ki, o, "Rusiyanın Krımı ilhaq etməsində əsas rol oynayan" xüsusi əməliyyat qüvvələrinə rəhbərlik edib.

O, həmçinin 2022-ci ildə Ukraynada pilotsuz uçan aparatları idarə etmək üçün əməliyyatçılara təlim məktəb açdığını iddia edən Böyük Britaniyanın sanksiyalar siyahısındadır.

❑ **"Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 143 (8516) 14 avqust 2024

# Həbsdəki Saakaşvilini yenə "tutacaqlar"



**Gürcüstanın "Gürcü Arzusu - Demokratik Gürcüstan" Partiyası seçkilərdəki əsas rəqibi, həbsdə olan sabiq prezident Mixail Saakaşvilinin yaratdığı Vahid Milli Hərəkat Partiyasını 2008-ci ilin avqust müharibəsinə görə məsuliyyəti mövzusunu yenidən gündəmə gətirib.**

Ayna.az gürcü mediasına istinadən bildirir ki, hakim partiyanın Siyasi Şurasının bununla bağlı yeni bəyanatı yayılıb.

Bəyanatda "Gürcü arzusu" təkrarlayır ki, seçkilərdən sonra "ictimai hüquqi proses baş verəcək", eyni zamanda əvvəlcədən müxalif rəqibi olan Vahid Milli Hərəkat Partiyasını "cinayətkar" və "satqın" elan edib.

Bəyanat müəllifləri bir neçə dəfə Avropa İttifaqının Gürcüstandakı müharibənin səbəblərini araşdırmaq üzrə beynəlxalq komissiyasının rəhbəri Heidi Taqliavininin "AzadlıqRadiosu"na verdiyi yeni müsahibəyə istinad ediblər. "Gürcü arzusu"na görə, Taqliavininin sözləri o vaxtkı Gürcüstan rəhbərliyinin hərəkətlərinin Rusiyanı təxribata çəkdiyini təsdiqləyir.

**Bəyanatda deyilir:** "Bizdə elə bir vəziyyət yaranıb ki, 2008-ci il müharibəsinin başlanmasına görə məsuliyyət daşıyan, ölkəsinə və xalqına xəyanət edən siyasi qüvvə hələ də hakimiyyətə qayıtmaq arzusu ilə hərəkət edir. Hesab edirik ki, belə bir şəraitdə "Vahid Milli Hərəkat" kollektivinin törətdiyi cinayətə hüquqi qiymət verilməsi cinayətə bərabərdir. Bu cinayətkarları qanun çərçivəsində maksimum dərəcədə məsuliyyətə cəlb etməyin vaxtı çatıb".

"Gürcüstan cəmiyyətinin əksəriyyəti Saakaşvilinin adekvatlığına haqlı olaraq şübhə edir. Lakin fakt odur ki, Saakaşvilinin 2008-ci ilin avqustundakı avantürist hərəkətləri onun psixi qeyri-sabitliyinin nəticəsi deyil, kənardan sifariş edilmiş və yaxşı planlaşdırılmış xəyanətin nəticəsidir", - deyə qeyd olunub.

# ABŞ Dövlət Departamentindən xəbərdarlıq



**"İranın Rusiyaya yüzlərlə ballistik raket tədarük etmək planları gərginliyin kəskin artmasına səbəb ola bilər". AYNA xəbər verir ki, bu sözləri ABŞ Dövlət Departamentinin sözçüsü Vedant Patel deyib.**

Keçən cümə günü "Reuters" Avropa kəşfiyyatındakı mənbələrinə istinadən xəbər verdi ki, onlarla rusiyalı hərbçi İranda "Fath-360" sistemləri ilə işləmək üçün təlim keçir.

"Amerikanın səsi"nin rus xidməti qeyd edir ki, raketlər Ukraynaya qarşı döyüş əməliyyatları üçün nəzərdə tutulub. "Fath-360" sistemləri 30-dan 120 kilometrə qədər qısa mənzilli taktiki raketlər sinfinə aiddir.

Mövcud məlumata görə, buraxılış anında raketin 150 kiloqramlıq döyüş başlığı səs sürətindən üç dəfə yüksək sürətə malikdir.

"Reuters"in məlumatına görə, ABŞ Milli Təhlükəsizlik Şurasının sözçüsü deyib ki, ABŞ, onun NATO müttəfiqləri və G7 tərəfdaşları İran bu tədarükləri həyata keçirərsə, tez və güclü şəkildə cavab verməyə hazırdırlar.

**İran prezidenti Pezeşkianın yeni təklif etdiyi hökumətdə Azərbaycan üçün də xüsusi maraq doğuran xarici işlər naziri postuna kimin gətiriləcəyi idi. Bəlli olduğu kimi, yeni prezident bu posta Abbas Əraqçinin namizədliyini irəli sürüb. Əraqçinin namizədliyini parlament təsdiqləməlidir.**



# Əraqçi nazir olarsa... - Bakıdan reaksiyalar

## Onun İran diplomatiyasına rəhbərlik etməsi Azərbaycanla münasibətlərə necə təsir edəcək?

Məlumata görə, M.Pezeşkianın məsləhətçiləri hesab edirlər ki, Əraqçi ölkənin xarici işlər naziri postu üçün ən uyğun namizəddir. Yada salaq ki, illər öncə azərbaycanlı şairlər İranda tutulanda buna etiraz olaraq nazir müavini Əraqçi Bakıya buraxılmamışdı.

Əraqçi 1962-ci il dekabrın 5-də Tehranda anadan olub, onun karyera yolunu əvvəlcədən müəyyən edən diplomatiya təhsili alıb. 1989-cu ildə o, Xarici İşlər Nazirliyində işə başlayıb, burada peşəkarlığı və fədakarlığı tez bir zamanda diqqəti cəlb edib. Əraqçi bacarıqlı diplomat kimi tanınır və 2015-ci ildə İran Nüvə Sazişinin bağlanmasında əsas rol oynayıb.

2013-cü ildən o, xarici işlər nazirinin müavini vəzifəsində çalışıb və altı beynəlxalq vasitəçinin (ABŞ, Böyük Britaniya, Fransa, Rusiya, Çin və Almaniya) nüvə proqramı üzrə danışıqlarında İran nümayəndə heyətinə başçılıq edib. Əraqçinin İranın maraqlarını müdafiə etmək bacarığı və diplomatik yanaşması İranın beynəlxalq əlaqələrinin normallaşdırılmasında böyük addım olan Birgə Hərtərəfli Fəaliyyət Planının (JCPOA) bağlanmasına töhfə verib.

Abbas Əraqçinin İran diplomatiyasının başına gətirilməsi Bakı-Tehran münasibətlərinə necə təsir edəcək?

**AMİP liderinin köməkçisi, politoloq Əli Orucov Əraqçinin təcrübəli diplomat olduğunu dedi:** "O, mühafizəkarların və islahatçıların qəbul etdiyi kadrdır. Doğrudur, İranın xarici siyasətini əsasən Ali Dini lider müəyyənləşdirir. Ancaq müəyyən edilən xarici siyasət kursunun həyata keçirilməsi böyük diplomatik bacarıq və səylərdən birbaşa asılıdır. Əraqçi professional diplomat kimi İranın nüvə proqramı ilə bağlı böyük dövlətlərlə - ABŞ, Böyük Britaniya, Fransa, Rusiya, Çin və Almaniya aparılan danışıqlara nazir müavini olaraq rəhbərlik edib. Onun çətin və uzun sürən danışıqları öz bəhrəsini verib. Əraqçi təcrübəli olmaqla yanaşı, həm də reallıqlar uyğun manevr qabiliyyətində olduğuna görə İran hökuməti kritik məsələlərdə onun fəaliyyətinə güvənib. Bir məsələni də xatırladım ki, Əraqçinin İranda bir neçə il öncə həbs olunan Azərbaycan vətəndaşı olan şairlərin həbsinə səbəb olan qalmaqalda Bakı ilə danışıqlara gəlmək planı iflasa uğrayıb və onu Azərbaycana buraxmayıblar. Məncə, onun xarici işlər naziri vəzifəsinə namizədliyinin irəli sürülməsi İranın beynəlxalq aləmdə münasibətlərinin gərginləşməsi və nüfuzuna ciddi xələl gəlməsi dönəminə təsadüf etməsi ciddi siqnaldır. Görünür, İran xarici siyasətində düşdüyü dalandan çıxması üçün Əraqçinin diplomatik istedadına ümid edir. Bir tərəfdən İsrail-İran münasibətlərinin müharibə həddinə çatması, digər tərəfdən, Yaxın Şərq və İran körfəzi regionunda yaranmış mürəkkəb vəziyyət yeni təsdiq olunacaq xarici işlər nazirini çətin sınaqlar qarşısında qoyacaq. Tehranın Bakı ilə də indiki münasibətlərini sabit və normal hesab etmirəm. İran rejimi Azərbaycanın İsraillə əməkdaşlığını və geniş əlaqələrini qəzəblə qarşılayır və hər fürsətdə Bakıya qarşı bundan qarayaxma, şantaj və gözdənsalma kampaniyası aparır. Eyni zamanda Türkiyənin artan regional nüfuzu İranı narahat etməkdədir. Qərbin, xüsusən də Fransa və ABŞ-ın Ermənistanda getdikcə artan mövqelərinə İranın soyuqqanlı mövqeyinin uzun sürməyəcəyi düşüncəsindəyəm. Əraqçinin bütün bu ciddi problemlərin, qlobal dünyada gedən sürətli proseslərdə İranın maraqlarını yüksək səviyyəyə qoruya biləcəyi barədə əmin deyiləm. Çünki həmin problemlərin həllinə İran Ali Dini Liderinin necə yanaşacağı və xarici siyasət kursunun necə müəyyənləşdiriləcəyi hələ aydın deyil".

**AĞ Partiya başqanının müşaviri, siyasi şərhçi Azər Hüseynov hesab edir ki, Əraqçinin İranda xarici işlər naziri postuna gətirilməsi Qərblə danışıqların intensivləşəcəyinin siqnalı ola bilər:** "Çünki Əraqçi Qərblə danışıqlar aparmış biridir. İranda bəzi dairələr başa düşür ki, dünyada bəzi güclər onu birbaşa münaqişəyə təhrik etmək istəyirlər. Qəribə görünsə də, İranla münaqişəyə, birbaşa üzləşməyə İsraili təhrik edən də daha çox Amerikadır. İran nüvə proqramı və raket silahlarının inkişafı işlərini aparır. İran daxili sənaye istehsalını sanksiya rejiminə uyğunlaşdıra bilib. Buna görə də İranın bu proqramlarını inkişaf etdirməsi regionda təhlükədir. İsrail-İran münasibətləri pis olsa da, İsrail də İranla birbaşa toqquşmada maraqlı deyil. Çünki İsrail son Qəzza müharibəsində əslində quru qoşun imkanlarının o qədər də deyildiyi kimi olmadığını göstərdi. Əgər İran və İsrail birbaşa savaşarlarsa, bu zaman ikinci gərək nüvə silahından istifadə etsin. Dünyada da bu hələ heç kimə lazım deyil. İrana da birbaşa münaqişə lazım deyil. Ona görə də İrana Qərblə danışıqlar aparmaq təcrübəsinə malik birisi lazımdır. İrana lazımdır ki, o, birbaşa münaqişəyə girməsin. Bizə də İran xarici siyasətini idarə edəcək olan şəxsin danışıqlar aparma qabiliyyətinə sahib olması lazımdır".

**Ədalət, Hüquq və Demokratiya Partiyası sədrinin müavini, politoloq Niyaməddin Orduxanlı isə o rəydədir ki, Azərbaycan üçün İranın xarici işlər nazirinin Abbas Əraqçinin və yaxud başqa birinin olmasının ciddi əhəmiyyəti yoxdur:** "Əsas İranın dini rəhbərinin və o cümlədən İran prezidentinin Azərbaycan dövlətinə olan münasibətidir. Azərbaycan müstəqil dövlətdir. Öz beynəlxalq siyasətini özü müəyyənləşdirir. İsraillə Azərbaycanın ikitərəfli normal və çox yüksək səviyyəli hərbi əməkdaşlığı var. 44 günlük müharibədə Amerikanın tapşırığı ilə bir Qərb dövləti Azərbaycana pulu ilə belə ən müasir silah vermədi. Yalnız İsrail Azərbaycana ən müasir silahı pulu ilə verdi. Bütün bunları ona görə sadalayıram ki, İranın XİN rəhbərinin kim olmasının heç bir mənası yoxdur. İranı idarə edən əsas şəxslər Azərbaycanla ikitərəfli və dostluq səviyyəsində əlaqələrin qurulmasında maraqlı olmalıdırlar. Yeni seçilmiş İran prezidenti Pezeşkian bu istiqamətdə işlər aparmalıdır. Həm də İran beynəlxalq əlaqələrinin qurulmasını düşünməlidir. Əhalisinin böyük əksəriyyəti yoxsulluq səviyyəsindən aşağı yaşayan İran bu əlaqələrin qurulması üçün yeni qərarlar qəbul etməlidir. İran-İsrail müharibəsinin baş tutmaması üçün birgə səylər göstərilməlidir. Bu, baş vermiş olsa, İran iqtisadiyyatına böyük zərbə vurulmuş olar. İranın yeni XİN rəhbəri bu istiqamətdə əlaqələrin qurulmasını təşkil etməlidir. Yeni XİN rəhbəri başqa yol seçəcəksə, bundan İran ancaq ziyan çəkə bilər".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Böyük Qayıdış

YENİ MÜSAVAT
N 143 (8516) 14 avqust 2024

## İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

**Qarabağa "Böyük Qayıdış" çərçivəsində artıq məcburi köçkünlərlə yanaşı, Azərbaycan tələbəsinin də ayaq səsləri işğaldan azad ərazilərdə eşidiləcək. Belə ki, abituryentlər bu ildən Qarabağ Universitetinə qəbul olmaq üçün seçimlərini edəcəklər.**




Qarabağ Universitetinin ilk tələbəsi də məlumdur. Mingəçevir şəhər 20 saylı tam orta məktəbin məzunu olan Atilla Muradlı qəbul imtahanlarında yüksək nəticə (519,2 bal) göstərərək, Qarabağ Universitetinin Elektrik və elektronika mühəndisliyi ixtisasında təhsil almaq istəyir.

**A.Muradlı təəssüratlarını "Yeni Müsavat"la bölüşüb:** "Özümlə qürur duydum. Adam zəhmətkeş olmasa, istedad dadına çatmır. İstedadı yalnız çox çalışmaqla üzə çıxarmaq olar. Qarabağın gözəlliyini, ab-havasını çox xoşlayıram. 30 ildən sonra bu torpaqda ilk universitetin tələbəsi olacağam. Bunu Ali Baş Komandana, qazilərimizə, şəhidlərimizə borcluyuq. Qarabağ Universitetini hələ gedib görməmişəm. Səbirsizliklə, həyəcanla gözləyirəm. Qarabağın heç bir yerində olmamışam".



# "Səhəri Şuşada, naharı Xankəndidə, şamı Ağdamda yeməyin ləzzəti başqadır"

## Elxan Şahinoğlunun işğaldan azad Qarabağ haqda təəssüratları...

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi analitik Elxan Şahinoğlu yay istirahətini ailəsi ilə birlikdə azad edilmiş Qarabağ torpaqlarında keçirib:** "53 yaşımın təxminən 33 ilini Qarabağ mövzusuna həsr etdim, kitablar yazdım, beynəlxalq konfrans və seminarlarda ermənilərlə mübahisə etdim. Azad olunan torpaqları ziyarət etmək üçün münasib vaxt gözləyirdim. Ailəmlə "məmləkətimizi daha yaxşı tanıyaq" devizi altında maşınla səfərə çıxdıq. Füzuli-Şuşa-Laçın-Xankəndi-Malıbəyli-Xocalı-Əsgəran-Ağdam boyu həm tarixi yerləri ziyarət etdik, həm də qəhrəman ordumuzun döyüş yolunu canlandırdıq. Səhəri Şuşada, naharı Xankəndidə, şamı Ağdamda yeməyin ləzzəti başqadır. Bu günləri bizə qismət etdiyinə görə Allah şəhidlərimizə rəhmət eləsin!"

**Politoloq deyib ki, Füzuli şəhəri və yeni hava limanıyla tanışlıqdan sonra Zəfər yolu ilə Şuşaya gediblər:** "Şuşa əsl tikinti meydançasıdır, hər yerdə qızğın iş gedir, şəhər şuşalılarla yanaşı turistlərlə doludur. Gələcəkdə turistlərin hesabına şuşalıların xidmət sahəsində çalışma imkanları artacaq. Şuşada qiymətlər o biri şəhərlərimizlə müqayisədə bahadır, meyvə və tərəvəz ətraf rayonlardan gətirilir. İsa bulağında nahar etdik, qiymətlərin fantastik dərəcədə baha olduğunu deyə bilmərəm, sadəcə, internetdə haqqında çox danışılan "32 manatlıq çayı" içmədik. Şuşada muzey və sərgi salonlarının sayı artıb. Xalça muzeyinin eksponatlarla zənginləşdirilməsinə ehtiyac var". **E.Şahinoğlu deyib ki, Laçın da başqa aləmdir:** "Laçında ailə üzvlərimdən birinin səhhətində kiçik problem yarandı, bizə şəhərdəki modul tipli xəstəxanaya müraciət etməyi məsləhət bildilər. Sağ olsun, yerli həkim dərdimizə çarə tapdı. Modul tipli xətəxanaya müraciət edənlərin sayının çox olmadığını müşahidə etsəm də, gələcəkdə Laçında daha böyük xəstəxananın tikiləcəyi aşkardır".

**Müsahibimiz bir sıra problemləri də qabartı:** "Şuşada iki gün qaldıqdan sonra Xankəndinə endik. Xankəndinin Şuşadan fərqini hiss etmədim. Doğrudur, evlər boşdur, ancaq şəhərin küçələrində Şuşada olduğu kimi, həyat qaynayır, tikinti işləri genişlənib, restoran və kafelər müştərilərlə boldur. İnşallah, bir neçə ildən sonra Xankəndinin digər şəhərlərimizdən fərqi olmayacaq.

Xankəndidən Xocalıya gedərkən qarşımızdakı maşında biri yüksək səslə muğam oxuyurdu. Fərəhləndim, ancaq sevincim çox çəkmədi, muğam oxuyan və torpaqlarımızın azad olunmasına sevinən soydaşım bir neçə dəqiqədən sonra içdiyi suyun şüşəsini maşının açıq pəncərəsindən azad olunan torpağımıza atdı. Bu cür halları paytaxt Bakıda da müşahidə edirik. Torpağımızın azad olunmasına sevindiyimiz halda bu torpaqları təmiz saxlamayan, ətrafı zibilləyən soydaşlarım bu əməllərindən əl çəkməlidir. Deyirik, yazırıq, hələ ki nəticə yoxdur".

**E.Şahinoğlunun Ağdam təəssüratları da maraqlıdır:** "Dağılmış Ağdam şəhərinin içindən keçdik, bura da tikinti meydançasıdır. Ağdam rayonunda dost və tanışlarımla görüşə tələsirdim. Seyid Lazım Ağanın qəbrini ziyarət etdikdən sonra yola çıxdıq. Sarıcalı kəndindən çıxarkən maşını saxladım, mərhum dövlət başçımız Heydər Əliyevin su içdiyi bulaqdan mən də içmək istədim. Nə yazıq ki, bulaqdan su gəlmirdi, kranlar da dağılıb. Görünür, Ağdam icra hakimiyyətinin başçısının başı o qədər qarışıqdır ki, həmin bulaqdan suyun gəlib-gəlməməsi ilə maraqlanmağa vaxtı yoxdur.

İşğal dövründə cəbhə xətti Sarıcalı kəndinin yaxınlığından keçib. Bu kəndin sakinləri 30 il səksəkə içində yaşayıblar, işğal dövründə bu istiqamətdə atəşkəsin pozulması adi hal idi. Buna baxmayaraq, kəndin heç bir sakini işğal dövründə evini tərk etməyib, orduya dayaq olub. Öz arxasında kənd və qəsəbələrdə yaşayan sakinlərin nəfəsini hiss edən ordu müharibədə qələbə qazanar. Sarıcalı məhz belə kəndlərdən olub. Buna baxmayaraq, Sarıcalı kəndinin bugünə qədər torpaq bölgüsü problemi mövcuddur, bu məsələnin həllinə ehtiyac var. Kənd sakinlərinə bu mövzunu diqqətdə saxlayacağıma söz verdim. Beləcə səfərimizi tamamladıq. Xoş təəssüratlarla ayrıldıq, yazıda qaldırdığım problemlərin isə müvafiq strukturların diqqət yetirəcəyinə ümid edirəm".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Cavanşir ABBASLI

# Sanki bütün dünya Laçındadır...

## Diaspor Gənclərinin V Yay Düşərgəsi başa çatdı

**Diaspor Gənclərinin V Yay Düşərgəsinin kadrlarına, şəkillərinə baxdıqca adama elə gəlirdi ki, bütün dünya Laçındadır. Əslində elə belə idi. 60 ölkədən 115 azərbaycanlı və xarici gənc Laçına gəlmişdi, daha doğrusu, gətirilmişdi.**



Dünya azərbaycanlı gənclərinin və xaricilərin iştirak etdiyi yay düşərgəsi üçün Laçının, Ermənistanla sərhəd rayonumuzun seçilməsi kifayət qədər ağıllı gediş idi. Relyefinə görə bir çox rayonlardan fərqlənən Laçının hər küçəsi, hər tini sanki bir zirvədir. Videokadrlara, şəkillərə baxdıqca adamda belə bir təsəvvür yaranır ki, dünya gəncləri sərhəddəki bu zirvədən baxaraq işğalın da, azadlığın da hər nöqtəsini aydın görə bilirdilər. Yay düşərgəsi həm də yenidən qurulan, daha da müasirləşdirilən Laçının da bütün dünyada təqdimatı idi.

Diaspor gənclərinin mətbuata verdiyi müsahibələrdən də aydın görünür ki, 60 ölkədən gələn gənclərin müxtəlif mövzulardakı müzakirələrdə iştirak etmələri, şəhid ailələri və qazilərlə, siyasi xadimlərlə görüşmələri, Qərbi Azərbaycanla bağlı məlumatlandırılmaları, laçınlıları dinləmələri beyinlərində dərin izlər buraxıb. Gənclərin bir həftə içində həm də Xankəndidə, Xocalıda, Şuşada olmaları isə onların həyatında fantastikadan başqa bir şey deyildi.

Diaspor Komitəsi ilə Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə keçirilən Diaspor Gənclərinin V Yay Düşərgəsinin sözsüz ki, zirvə nöqtələri vardı. Gənclər Qarabağ Universitetinin ilk qonaqları idi. Bu, inanılmaz bir ziyarət idi. Dünyanın ən bahalı ali məktəblərində təhsil alan bir çox düşərgə iştirakçıları bəlkə də ən çox görmək istədikləri, ən arzuolunan ali məktəbin auditoriyalarında, dəhlizlərində dolaşırdılar. Bu sevincin, bu mənzərənin nə əvəzi vardı, nə də tayı-bərabəri.

Diaspor gənclərinin düşərgələrinin son məqsədi təbii ki, informasiya müharibəsində iştirak edən diasporumuzun biliklə silahlandırılmasıdır. Bu mənada düşərgə iştirakçılarının Xankəndinə, Xocalıya səfəri ciddi strateji planlamanın məntiqi nəticəsi idi. Bəlkə də həmin gənclər bir-iki il əvvəl belə səfərlərin xəyalını belə qurmaqda çətinlik çəkərdilər. Heç ağıllarına da gəlməzdi ki, çox yaxın zamanda Xocalıda müsahibə verəcək, Xankəndinin küçələrində müasir tarixi vərəqləyəcəklər.

Diaspor Gənclərinin V Yay Düşərgəsinin zirvə nöqtələrindən biri də Azərbaycan bayrağını kosmosa aparan, anası azərbaycanlı olan türk astronavtın düşərgəyə gətirilməsi idi. Bu, diaspor gənclərinə, türk gəncliyinə verilən ən böyük mesajlardan biri idi. Gəncliyimizə mesajlar verilirdi ki, harada olmağınızdan asılı olmayaraq bayrağımıza, tarix və mədəniyyətimizə bağlı olmalı, türk diasporu və Azərbaycanı sevən xalqların diasporları ilə işbirliyi içində fəaliyyət göstərməli, bütün yeni platformalara hakim olmalısınız.

Bu işin uğurlu tərəflərindən biri də yay düşərgələrinin davamlılığının pozulmamasıdır. İldən-ilə düşərgəyə daha çox ölkədən gənclər qatılır. Yəni informasiya müharibəsinin iştirakçıları olan gənclərimizin əhatə dairəsi genişlənir, məlumatlılıq daha da artır.

Düşərgədə iştirak edən gənclərin müsahibələri, sosial media platformalarındakı paylaşımları iştirakçıların intellektual potensialları haqqında da kifayət qədər məlumat verir. Bu da düşərgədə iştirak prosesinin düzgün aparılmasından xəbər verir.

Düşərgə bitib, amma hamı Diaspor Gənclərinin V Yay Düşərgəsindən danışır. Düşərgəni kənardan izləmək bu qədər qürurverici idisə, onun iştirakçılarının nə qədər xoşbəxt olduqlarını təsəvvür etmək mümkündür. Bu möhtəşəm tədbir təbii ki, bir həftə xoşbəxt olmaq üçün deyil, bir ömür boyu ayıq-sayıq olmaq, vətəndaş olmaq, Azərbaycanı unutmamaq, vətəni layiqincə təmsil etmək, informasiya cəbhəsində əsgər kimi vuruşmaq üçündür...

YENİ MÜSAVAT
N 143 (8516) 14 avqust 2024




## Bakı-Sumqayıt yolunda bitməyən tıxaclar: problem necə həll edilə bilər?

**İllərdir tıxacı ilə dillər əzbəri olan Bakı-Sumqayıt yolunda vəziyyət getdikcə daha da qəlizləşir. Bu il yay tətilində universitet və məktəblərin bağlı olmasına baxmayaraq, bu yolda sıxlıq azalmadı. İnsanlar isə narahatdır. Xırdalanda yaşayan sakinlərdən biri deyir ki, o, "20 Yanvar" metrosundan Xırdalana nə az, nə çox düz bir saata gedib çıxır.**

Bəs sözügedən yolda tıxacları aradan qaldırmaq üçün hansı alternativ tədbirlər görülə bilər?

"Bakupost"un sualını cavablandıran **nəqliyyat eksperti Elməddin Muradlı** bu problemləri aradan qaldırmaq üçün ölkə başçısının göstərişi ilə yeni yol xəritəsinin hazırlandığını bildirib: "Bu yolun tikintisinə də artıq başlanılıb. Ola bilsin ki, bir neçə ilə yolun tikintisi başa çatacaq. Amma dövlətin alternativ yollar çəkilərək, problemin aradan qaldırılması ilə bağlı da tapşırıqları var. Kənar dairəvi yolların birləşdirilməsi, Böyük Şor üzərindən yeni yolun çəkilməsi nəzərdə tutulur. Hətta Keşlə bazarı sökülmək üzrədir. Oradan da yeni yol keçəcək. Yəni bir çox alternativ yolların çəkilişinə başlanılıb".

**E.Muradlı Binəqədi şossesində hər gün tıxacların olduğunu bildirib:** "O ərazilərdə əsasən qanunsuz tikililər var. İcra hakimiyyətlərinə, bələdiyyələrə rüşvət verərək tikilən evlər yollarda sıxlıq yaradıb. Maklerlər puldan ötrü hər yola əl atıblar. Heç kim də gəlib deməyib ki, belə olmaz, bu qədər acgöz olma. Təsəvvür edin ki, evin qapısı birbaşa yola açılır və az qalır ki, adamı maşın vursun. O istiqamətdə də sıxlığın azaldılması üçün tədbirlərə ehtiyac var".




## Taksilərlə bağlı narazılıq

**Bu günlərdə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) vətəndaşlardan daxil olan müraciətlər əsasında 65 taksi minik avtomobilini daşımalardan kənarlaşdırıb.**

Bildirilib ki, sifariş edilən və ünvana gələn taksilərin fərqli olması ilə qarşılaşan vətəndaşlar sifarişdən imtina etməli, eyni zamanda həm bu halda, həm də taksi sürücülərinin davranışı, kondisionerdən istifadə edilməməsi və s. haqqında AYNA-ya məlumat verməlidirlər.

Nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı bildirib ki, avtomobili köhnə olan taksi sürücüləri öz yaxın qohumlarının yeni avtomobili ilə sistemdə qeydiyyatdan keçərək köhnə avtomobilləri ilə xidmət aparırlar. Hətta bu, kütləvi hal almağa başlayıb. Baxmayaraq bu hal qanunsuzdur. Bu, vətəndaşlar tərəfindən böyük narazılıqla qarşılanır.

**Ekspert belə hallar aşkarlanarsa taksi sürücülərinin AYNA tərəfindən cəzalandırılacağını söyləyib:** "Buna sistem üzərindən nəzarət etmək mümkün deyil. Yalnız küçələrdə reydlər təşkil etməklə bu cür halların qarşısının alınması mümkündür".

# Cadugərlər Azərbaycanda milyonlar qazanır

## **İlahiyyatçı:** "Cadu xəstəlik kimidir, Allahla əlaqəsi güclü olana heç nə təsir etməz, zəif olana isə..."

**Keçmiş "Lider" televiziyasının rəhbəri Ədalət Əliyevin xanımı Nailə Əliyeva paylaşımları ilə bir mövzuya diqqət çəkib. İş xanımı bir qadının ona cadular etdiyi haqda sosial şəbəkə hesabında məlumat yayıb.**



**N.Əliyeva bildirib ki, bu məsələ ilə bağlı həmin qadın bu yaxınlarda ona mesaj yazaraq üzrxahlıq edib:** "Bir xanım neçə illərdir ki, mənə cadular edib. Mən təəccübləndim, düşünürəm ki, o, buna çox pul xərcləyib, bunun işləməyəcəyini görmür? Onun bizə etdiyi hər şey onun öz başına gəlib və ən pisi övladlarının başına gəldi, boşanmalar, işsizlik, xəstəliklər... Amma münasibətlərimiz getdikcə güclənir, maşallah. Amma bir müdrik qadın mənə bunun necə işlədiyini izah etdi və sizə məsləhət vermək istərdim. Mən soruşmayacağam ki, cadugərliyə inanırsanmı, falçılara gedirsənsə, hərə özü bilər, bayaq dediyim kimi, heç kimi mühakimə etmirəm, hər kəs öz yolunu seçir".

Heç kimə sirr deyil ki, ölkəmizdə işləri yolunda getməyən, çətinliyə düşən kimi falçı və cadugərlərin qapısını döyən insanlar kifayət qədərdir. Kimisi bu yolla bəxtinin açılacağına, kimisi qazancının, ruzi-bərəkətinin artacağına, kimisi ev alacağına inanır. Bir sözlə, inam, ümid sonda insanı bu yolu sınamağa vadar edir. Bu səbəbdən belə iddialar da var ki, cadugərlər Azərbaycanda hər il milyonlar qazanır.

Cadugərlik haqqında müqəddəs hesab edilən dini kitablarda da bəhs edilir. Qurani-Kərimin "Nas" və "Fələq" surələri cadugərliyə həsr olunub.

İddialara görə, hazırda Azərbaycanda falçı və cadugərlər həm onlayn, həm də oflayn fəaliyyət göstərib xeyli pul qazanırlar. Fəaliyyətləri hər nə qədər qanuna zidd olsa da, onlar öz əməllərinə davam edirlər. Lakin dövlətə vergi ödəmirlər.

Falçı və cadugərlik leqal fəaliyyət növü deyil və buna görə Dövlət Vergi Xidməti onları vergi ödəyicisi kimi qeydiyyata ala bilmir. Azərbaycanda caduya inanan və yuxarıdakı xəbərdən də bəlli olduğu kimi cadu etdirən də var. Bəs İslamda cadu barədə nə deyilir? Bundan necə qorunmaq olar?

Yeri gəlmişkən, ABŞ-ın "Plos One" elmi jurnalında yayımlanan araşdırmaya görə, dünyada caduya inananların sayı artmaqdadır. Araşdırmanın gəldiyi nəticəyə əsasən, dünya əhalisinin 43 faizi caduya inanır. Alimlər bu vəziyyətin ən mühüm səbəbinin rifah səviyyəsi ilə bağlı olduğunu vurğulayıblar. Belə ki, kasıb ölkələr caduya çox, varlı ölkələr isə az inananlar arasında yer alıb. Sorğular 5 qitə və 95 ölkədən 140 min insan arasında aparılıb. Sorğuya cəlb olunan insanlara "Pis gözə inanırsınızmı?", "Pis cadu ola bilərmi?" kimi suallar verilib.

İlahiyyatçı Fərid Abdulla "Yeni Müsavat"a mövzu ilə bağlı fikirlərini bildirib: "Qarşılaşdığım ən çətin durumlardan biri elə istixarə, dua, cadu və bu qəbil məsələlərdir. Mənə də bununla bağlı çox sayda suallar verilir. Deyirəm, əziz insan, adamın platforma və üslubuna baxın, sonra müraciət edin.

Bəzən tanıdığım adamlar da olur. Soruşurlar ki, ""Quran"a baxardınız, hansı duanı oxuyum, cadu əleyhinə hansı əməlləri edim?" Deyirəm ki, mənim bu barədə fikrim ayrıdır və sizinlə eyni fikirdə olmaya bilərəm. Əgər buna inanırsınızsa, buna inanan adamdan soruşun. Görürəm ki, nə isə naümid olurlar. Yəni necə ola bilər ki, din sahəsi ilə məşğul olan biri, bunlarla da məşğul olmasın? Bu mənim öz fikrim və inancımdır. Probleme düşmüsən? Get dizini at yerə, dua et. İstədiyin duanı, istədiyin dildə de. Elə bir dua yoxdur ki, Allah desin, bunu oxusan, qəbul edərəm, bunu isə oxusan yox... Bu həyat sınaqla doludur. İmam Hüseynin başına gələnlərə baxın. Ona cadumu olunmuşdu? İmam Hüseyn Yezid və başqaları üçün, başqaları da onun üçün sınaq və imtahan idi. İstixarə sadəcə qərarsızlıq üçün həll yoludur. Amma bu o demək deyil ki, Allahın qərarıdır. Sabah deyə bilməzsən ki, Allah, nə edim e, sən dedin elə, mən də etdim. Həm də yaxşı gəlsə belə, bu cür davam edəcəyinə sığorta da deyil.

Caduya gəlincə, bu, xəstəlik kimidir. Allahla əlaqəsi güclü olana heç nə təsir etməz. Zəif olana, hər şey təsir edər. Allahdan başqa güc, qüdrət sahibi yoxdur. Hətta peyğəmbərlər belə, xəstələniblər, işləri düz gəlməyib və sair. Lakin insanlar bu acı reallığı yox, nə isə xüsusi qeybi, əfsanəvi, qeyri-adi şeyləri dinlə assosiasiya edirlər. Zənn edirlər ki, din mavəradır. Həm də mavəradır (pərdə arxasında olanlar). Lakin bu bizim öhdəliyimiz deyil. Əgər Allah sənə (sınamaq üçün və ya günahın kəffarəsi olaraq) bir zərər toxundursa, bunu Ondan başqa heç kəs aradan qaldıra bilməz. Əgər sənə bir xeyir vermək istəsə, heç kəs Onun lütfünün qarşısını ala bilməz. O, bunu Öz qullarından istədiyinə nəsib edər. O, bağışlayandır, rəhimlidir. (Yunus, 107) Kim nəyə inanırsa, ona da əməl edə bilər. İnsan adətən inancı ilə üz-üzə gəlir və sınanır".

İlahiyyatçı əlavə edib ki, İslam tərəfindən sehr etmək, bundan pul qazanmaq haramdır, böyük günahlardandır: "İnsan ilk növbədə cadudan, falçıdan, gözdəymədən qorunmaq üçün Allaha çoxlu zikrlər etməlidir. Tez-tez "Əuzu billəhi minəş-şeytanir-racim cümləsini, yəni qovulmuş şeytanın şərindən Allaha sığınıram deyin. Bundan əlavə, "Fələq", "Nas" surələrini oxuyun. "Qələm" surəsinin 51 və 52-ci ayələrini oxumaq lazımdır, buna bəd-nəzər ayələri də deyilir. Eləcə də "Ayətül kürsi" oxunmalıdır".

❑ **Afaq MİRAYİQ,
"Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 143 (8516) 14 avqust 2024

# “Şahdəniz”də gəlirlərin azalması büdcəyə necə təsir edəcək?

## Qaz qiymətlərinin də, ixracın da getdikcə sabitləşəcəyi gözlənilir

**Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) cari ilin əvvəlindən avqustun 1-dək “Şahdəniz” yatağından (qaz və kondensat) 364,465 milyon dollar gəlir əldə edib. Bu barədə məlumatı Neft Fondunun ictimaiyyətlə əlaqələr departamenti yayıb. Məlumatdan aydın olur ki, “Şahdəniz” yatağı üzrə gəlirlər ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,1 dəfə azalıb. Eyni zamanda “Şahdəniz” yatağı üzrə kondensatın satışından əldə olunan gəlirlər hesabat dövründə 2,3 dəfə azalaraq 113,878 milyon dollar təşkil edib.**

Qeyd edək ki, “Şahdəniz” üzrə gəlirlərin azalması ixrac həcmlərinin artması ilə müşayiət olunur. Belə ki, Energetika Nazirliyindən “Yeni Müsavat”a verilən məlumata görə, bu ilin 7 ay ərzində Azərbaycanda təxminən 29,5 milyard kubmetr təbii qaz hasil edilib. Qazın 7,7 milyard kubmetri “Azəri-Çıraq-Günəşli” yataqları blokundan (AÇG), 16,5 milyard kubmetri “Şahdəniz” yatağından, 0,9 milyard kubmetri Abşerondan, 4,4 milyard kubmetri SOCAR üzrə hasil olunub: “Ötən ilin müvafiq dövrünə nisbətən qaz hasilatında təqribən 1,3 milyard kubmetr artım qeydə alınıb”.

**Hesabat dövründə xaricə qaz satışı təxminən 14,7 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,7 faiz çoxdur:** “Cari ilin yanvar-iyul aylarında Türkiyəyə təqribən 5,8 milyard kubmetr, Avropaya təqribən 7,5 milyard kubmetr (13,6 faiz artım), Gürcüstana isə 1,4 milyard kubmetr qaz satılıb. Qeyd edək ki, Türkiyəyə TANAP-la bu müddətdə 3,3 milyard kubmetr qaz nəql olunub”.

2021-ci ilin payızı, 2022-ci ildə Rusiyanın Ukraynada işğalçı müharibəyə başlaması ilə dünya qaz bazarında qiymətlər on dəfələrlə artaraq min kubmetr üçün 4 min dollara qədər yüksəldi. Yüksək qiymətlər 2022-ci ilin sonuna qədər davam etdikdən sonra tədricən azalmağa başladı. Avropa İttifaqı Rusiya qazını əsasən ABŞ-dan olmaqla maye qazla əvəz etməklə yanaşı, Əlcəzair, Azərbaycan, Norveç kimi ölkələrdən də idxalı artırmaqla, öz enerji təhlükəsizliyini təmin edə bildi. Nəticədə qaz qiymətləri sürətlə azalaraq, 2024-cü ilin ikinci rübündə 300 dollardan da aşağı düşdü. Bu prosesdə Avropa İttifaqının tezliklə - 2040-cı ilədək qalıq yanacaq olan qazdan imtina planları da mühüm rol oynamaqdadır.

Qaz qiymətlərinin düşməsi yalnız Neft Fondunun gəlirlərini deyil, dövlət büdcəsinə daxilolmaları da azaldıb. Maliyyə Nazirliyinin açıqladığı məlumata görə, sari ilin ilk altı ayında dövlət büdcəsinin neft-qaz sektoru üzrə daxilolmaları 8 milyard 797,7 milyon manat təşkil edib. Bu, proqnozla müqayisədə 320,9 milyon manat və ya 3,8 faiz, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 2 milyard 148,9 milyon manat və ya 32,3 faiz çoxdur. Bu artım bilavasitə Neft Fondundan büdcəyə transfertin ötən ilin eyni dövründən çox olmasından qaynaqlanır. Belə ki, cari ildə neft-qaz sektoru üzrə daxilolmaların 27,4 faizini və ya 2 milyard 407,2 milyon manatını vergi daxilolmaları, 72,6 faizini və ya 6 milyard 390,5 milyon manatını isə Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert təşkil edib. Ötən ilin eyni dövründə Dövlət Neft Fondundan transfert cəmi 2 milyard 661,0 milyon manat olmuşdu.



Bu il neft-qaz sektoru üzrə vergi daxilolmalarının 48,5 faizini və 1 milyard 167,0 milyon manatını “Şahdəniz” yatağı üzrə mənfəət vergisi, 34,6 faizini və ya 833,3 milyon manatını Dövlət Neft Şirkətinin ödədiyi müvafiq vergilər, 16,9 faizini və ya 406,9 milyon manatını isə ABƏŞ-in mənfəət vergisi təşkil edib. Ötən ilin eyni dövründə “Şahdəniz” qaz-kondensat yatağı üzrə mənfəət vergisi 2 milyard 630,4 milyon manat olmuşdu. Göründüyü kimi, yatağdan büdcəyə daxilolmalar 2 dəfədən çox azalıb.

Maliyyə Nazirliyi 2024-cü ilin yekununda dövlət büdcəsinə vergi və rüsumlar üzrə 15 milyard 270 milyon manat daxil olacağını, bunun 4 milyard 580,0 milyon manatı və ya 30,0 faizinin neft-qaz sektorundan təmin ediləcəyini gözləyir. Bunun da 43,7 faizi və ya 2 milyard manatının Azərbaycan Respublikası Dövlət Neft Şirkəti üzrə vergilər, 14,2 faizi və ya 650,0 milyon manatının Azəri-Çıraq-Günəşli layihəsi üzrə hasilatın pay bölgüsü sazişləri çərçivəsində fəaliyyət göstərən podratçı təşkilatların mənfəət vergisi, 42,1 faizinib və ya 1930,0 milyon manatının isə Şahdəniz layihəsi üzrə hasilatın pay bölgüsü sazişləri çərçivəsində fəaliyyət göstərən podratçı təşkilatların mənfəət vergisinin təşkil edəcəyi nəzərdə tutulur. Göründüyü kimi, qaz gəlirlərinin azalması büdcə proqnozlarının artıqlaması ilə icrasına mane olmur.

Avqustun 6-da Ukrayna ordusu Rusiyanın Kursk vilayətinə daxil olaraq, iki ölkə arasında qaz tranzitinin reallaşdığı yeganə məntəqə olan Sucaya nəzarəti ələ aldıqdan sonra Avropa bazarında qaz qiymətləri qısa müddətdə 150 dollardan çox bahalaşaraq 450 dolları keçdi. Avqustun 10-da Avropa İttifaqı ölkələrində yeraltı qaz anbarlarına 312 milyon kubmetr qaz vurulub, onlardan 32 milyon kubmetr qaz götürülüb. “Yeni Müsavat” Gas Infrastructure Europe-nin (GIE) məlumatına istinadən xəbər verir ki, hazırda Avropanın anbarları 87,59 faiz qazla doludur. Bu, son beş il ərzində bu tarix üçün orta göstəricidən 8,11 faiz bəndi yüksəkdir. Anbarlarda 96,4 milyard kubmetr qaz var.

Əlverişli hava şərtləri fonunda Aİ maye qaz idxalını son 3 ilin minimumuna qədər endirib. Belə ki, iyul ayında terminallardan Avropa qaz nəqli sisteminə mayeləşdirilmiş təbii qazın ümumi daxilolmaları 2021-ci ilin noyabr ayından bəri ən aşağı həddə çatıb, avqustda isə azalma tendensiyası davam edir. Hazırda maye qazın yenidən qazlaşdırılması və onun Avropa boru kəmərlərinə daha da vurulması gücü maksimumun 29 faizi ilə yüklənib.

İyulda Avropada qazın orta alış qiyməti 1 min kubmetr üçün 366 dollar təşkil edib. Avqustda isə 2 gün ərzində 450 dolları keçsə də, sonradan 429 dollar ətrafında sabitləşib. Lakin bu qiymətlərin kövrək olduğu, Kurskda müharibə şiddətləndikcə yenidən artıma başlayacağı gözlənilir. Doğrudur, Avropa İttifaqı artıq bu ilin dekabrından Ukrayna üzərindən nəql olunan Rusiya qazının dayanmasına hazır olduğunu elan edib. Bu marşrutla qaz alan Avstriya və İtaliya çatışmayacaq həcmləri əldə etməyin yolunu tapdıqlarını elan ediblər. Lakin buna baxmayaraq, Ukraynadan qaz nəqlinin vaxtından əvvəl dayanması ehtimalı qiymətləri kəskin artırdı və bu, Aİ-də qazla bağlı təhlükəsizliyin necə təsirlərə həssas olduğunu ortaya qoydu.

**Xatırladaq ki, Aİ 2022-ci ilin iyulunda Azərbaycanla qaz idxalının ikiqat artırılmasına dair memorandum imzalasa da, bu prosesə dəstək verməkdən boyun qaçırır. Bununla bağlı iyulda 2-ci Şuşa Qlobal Media Forumunun açılış mərasimindəki çıxışında Prezidenti İlham Əliyev ilginc məqamlara toxunub:** “Bu gün Avropanın bizim qaza böyük ehtiyacı var. Mən nəyə görə dedim ki, gəlin riyakarlığa son qoyaq?! Bir tərəfdən Avropa bizdən xahiş edir ki, hasilatı artıraq və onu Avropaya nəql edək. Çünki onların buna ciddi ehtiyacı var. Digər tərəfdən, onlar bunu maliyyələşdirmirlər və bu, mənim avropalı həmkarlarımla müzakirələrimdə mövzudur”. **Dövlət başçısı deyib ki, Avropa İnvestisiya Bankı da faydalı qazıntı yanacağı ilə bağlı layihələri maliyyələşdirməyi tamamilə dayandırıb:** “Avropa Yenidənqurma və İnkişaf Bankı demək olar ki, bu sahəyə maliyyə ayırmır. Cənub Qaz Dəhlizi - bu, 3500 kilometr uzunluğunda olan inteqrasiya edilmiş boru kəməridir, tam həcmdə, 100 faiz həcmlə işləyir. Bu gün Avropa ölkələrinin əlavə qaza böyük ehtiyacı var. Biz Sloveniyadan olan bir şirkətlə saziş imzaladıq və bu da Azərbaycanın doqquzuncu tərəfdaşıdır ki, bizim qazın istehlakçısı olacaqdır. Ancaq Avropanın maliyyə institutları bunu maliyyələşdirmir. Onlar istəyirlər ki, biz Cənub Qaz Dəhlizini 16 milyard kubmetrdən 32 milyard kubmetrə qədər genişləndirək. Söhbət TANAP-dan gedir və TAP-ı 10 milyarddan 20 milyard kubmetrə çatdıraq. Biz oraya milyardlarla pul yatırmalıyıq”.

**Dövlət başçısı onu da əlavə edib ki, Cənub Qaz Dəhlizinə yatırdığımız sərmayənin hələ də tam mənfəətini götürməmişik:** “Bizim neft-qaz sahəsindən əldə etdiyimiz gəlir hələ də bu borcun ödənilməsinə yönəlib. Onlar gözləyirlər ki, biz oraya milyardlarla vəsait yatıraq və eyni zamanda, deyirlər ki, 10 ildən sonra Avropa İttifaqının qaza ehtiyacı yoxdur. Yəni biz ağılsızıq ki, onların ehtiyacı olmadığı qaza 10 milyardlarla vəsait qoyaq? Yəni sonra da deyək ki, bizim qazımız haradadır. Yəni mənim mesajım o oldu ki, gəlin, bu oyuna son qoyaq, faydalı qazıntı yanacağı olmadan yaşamaq mümkün deyil”.

Avropanın qazdan imtina planına baxmayaraq, əksər beynəlxalq analitik mərkəzlər ortamüddətli dövrdə Aİ-də qaza tələbatın sürətlə artımını proqnozlaşdırırlar. Bu isə qaz qiymətlərinə artırıcı təsir göstərəcək əsas amildir. Qaz istehlakına dair gözləntilər fonunda Niderlandın beynəlxalq bank və maliyyə xidmətləri korporasiyası ING (Internationale Nederlanden Groep) Avropada təbii qazın orta qiyməti üzrə proqnozunu artırıb. Korporasiya 2024-2025-ci illər üçün TTF indeksi (Niderlandın “Title Transfer Facility”i - Avropanın ən iri virtual satış mərkəzi) üzrə Avropada qazın qiyməti ilə bağlı proqnozunu 29 avrodan (elektrik enerjisi ekvivalentində - MVt-saat üçün) 31 avroya qaldırıb.

Azərbaycanın qaz ixracından gəlirlərinin qiymətlərin pik həddə olduğu 2021-2022-ci illərlə müqayisədə 2023 cə 2024-cü illərdə aşağı olması təbii proses kimi qiymətləndirilə bilər. Çünki Azərbaycanın əsas qaz ixrac layihəsi olan CQD qazın 260 dollarlıq qiyməti ilə layihələndirilib. Bu baxımdan, ixracın da getdikcə artırılması fonunda gəlirlərin normal həddə sabitləşəcəyi gözlənilir.

❑ **Dünya SAKİT, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
Son səhifə
N 143 (8516) 14 avqust 2024

# Bu ət növləri ürək üçün təhlükəlidir



**Kardioloqlar ürək üçün təhlükəli olan 3 növ əti açıqlayıblar. Ət məhsulları pəhrizə daxil edilməlidir, lakin üç növdən uzaq durmaq lazımdır. Bəzi qidalar ürək-damar sağlamlığını artırır, digərləri isə ürək xəstəliyi riskini əhəmiyyətli dərəcədə artırır.**

Qırmızı ət doymuş yağda yüksəkdir, bu da lipid profilinizə mənfi təsir göstərə bilər. Son tədqiqatlar göstərir ki, ət bağırsaq bakteriyaları tərəfindən parçalandıqda, ürək xəstəliyi, böyrək xəstəliyi və tip 2 diabet riskini artıran TMAO adlı bir metabolit istehsal edir. Donuz və kolbasa kimi emal edilmiş ətlərdə iltihablı nitratlar və natrium var. Nəticədə bu kimi ətlər qan təzyiqini artırır ki, bu da iltihabla əlaqələndirilir".

Deli əti, sağlamlığa, xüsusən də ürəyə zərər verən çoxlu əlavələr ehtiva edən emal edilmiş ətlərin ən zərərli növlərindən biridir. İşlənmiş ətlər ürək-damar xəstələrinin, o cümlədən infarkt və insult riskini artıran qidalar siyahısında birinci yerdədir. Alternativ olaraq hinduşka və toyuq kimi yağsız ətlərdən istifadə daha məsləhətlidir. Hot-doqlar da məşhur və dadlı yeməkdir, lakin təəssüf ki, ürək üçün son dərəcə zərərlidir və onların həddindən artıq istehlakı ürək-damar xəstəlikləri riskini artıra bilər.

Doymuş yağ damarları daraldaraq və qan axını məhdudlaşdıraraq, damarlarda lövhə əmələ gəlməsi riskini artırır. Natrium bədəndə mayenin tutulmasına səbəb olur ki, bu da ürəyə stress yaradır və qan təzyiqini artırır, ürək-damar ağırlaşmaları riskini artırır.



## Həkimdən xəbərdarlıq: gündə 200 qram tərəvəz yeməsəniz...

**“Yetkin insan gündə ən azı 200 qram tərəvəz yeməlidir”.**

Bu barədə dietoloq İrina Pisareva “Veçerney Moskve”ya danışıb. "Onları daha az yeyirsinizsə və ya heç yemirsinizsə, immunitetiniz azalacaq. Həmçinin kəsiklərin, cızıqların, sızanaqların və sıyrıqların sağalması daha uzun çəkəcək və orqanizm lif qəbul etməyəcəyi üçün qidanın həzm olunması prosesi çətinləşəcək", - Pisareva xəbərdarlıq edib.

Həkim qeyd edib ki, tərəvəzlərin tərkibindəki lif ümumi insan sağlamlığı və toxunulmazlığının asılı olduğu bağırsaq bakteriyalarının tərkibini yaxşılaşdırır: “O, həmçinin xolesterol səviyyəsini azaltmağa və qan şəkərinin səviyyəsini normallaşdırmağa kömək edir. Bundan əlavə, tərəvəzlər hüceyrələri reaktiv oksigen növlərinin zədələnməsindən qoruyan vitaminlər və antioksidantlarla zəngindir. Mümkün qədər çox qida əldə etmək üçün pəhrizinizə müxtəlif rəngli tərəvəzlər daxil etmək yaxşıdır”.

## Limonlu su içmək bu xəstəliklərdən qoruyur



**Əsasən arıqlamaq məqsədilə istifadə edilən limonlu suyun orqanizm üçün bir çox faydası var. Limonlu suyun faydaları aşağıdakılardır:**

- Limonlu su immuniteti gücləndirir və sərbəst radikallardan qoruyur;
- Həzmi asanlaşdırır və qəbizlik kimi problemləri həll edir;
- Böyrək daşlarının əmələ gəlməsinin qarşısını alır;
- İltihabın qarşısını alaraq artrit kimi revmatik ağrılara yaxşı gəlir;
- Bədəndən toksinlərin çıxarılmasını asanlaşdırır;
- Qan təzyiqini aşağı salır, ürək sağlamlığını qorumağa kömək edir;
- Kollagen istehsalını dəstəkləyir və dəri üçün faydalıdır.



## Alimlər yatmaq üçün ən uyğun saatı açıqladılar

**Yatmaq üçün ən uyğun vaxtda yuxuya getmək sağlamlığı qorumaq üçün vacibdir. Alimlərin fikrincə, yuxu üçün “qızıl saat” deyilən bir vaxt var. Avropa Kardiologiya Cəmiyyətinin nəşr etdiyi araşdırmaya görə, uzun illər sağlamlığı qorumaq üçün hər gün eyni vaxtda yatmaq lazımdır. Altı il ərzində 80 000-dən çox insanı müşahidə edən elm adamları 12:00-da və ya daha sonra yatağa gedənlərin sağlamlıq problemlərinin daha çox olduğunu aşkarlayıblar. Gecə həyat tərzini seçən insanlarda ürək-damar xəstəliklərinə 25% daha çox rast gəlinir.**

Eyni zamanda çox erkən yatmamalısınız. Axşam saat 22:00-dan əvvəl yatağa gedənlərdə ürək və damar problemləri riski 12% artır. Mütəxəssislər qeyd edirlər ki, yatmaq üçün ən yaxşı vaxt saat 22:00-23:00 arasıdır.

A v q u s t

## Bunları bilirsinizmi?

* İnsan bədənindəki əsəb impulsları saniyədə 90 m sürətlə dəyişir.
* Ağciyərin üzəri 100 kvadrat metrdir. Onun üst qatının sahəsi tennis kortunun sahəsinə bərabərdir.
* Dünya əhalisinin qidasının 70%-dən çoxu 12 çeşiddə bitki və 5 növ heyvandan ibarətdir.
* Stalinin 70 illiyinə bağışlanmış hədiyyələrin siyahısı elə uzundur ki, onu qəzetlər 1949-cu ilin dekabrından 1953-cü ilin martınadək dərc etməli olmuşdular.
* İnsan beyni gündə dünyadakı bütün telefonlardan daha çox elektrik impuls edir.
* Maksimal sayda krossvordu Adrian Bell hazırlayıb. 1930-cu ilin yanvarından 1980-ci ilə qədər o, “Tayms” qəzetinə 4520 krossvord yollayıb.
* İngiltərədə çap olunan ilk kitab Şahmata həsr olunub.
* Kitab oxuyarkən hər saniyədə 70 hüceyrə ölür.
* İnsanin gün ərzində orta gücü 100 vatt, ürəyinin gücü isə 10 vattdır.
* Açıq gözlə asqırmaq qeyri-mümkündür.
* İnsan ağzında 40 000 bakteriya var.
* İnsanların 70%-i çoxluğun fikrindən asılıdır. Yalnız 30% insan öz fikri ilə hərəkət edir.

## Koreya robot-itlərin sınaqlarına başladı



**Koreya ordusu robot iti sınaqdan keçirməyə başlayıb. Bu barədə Koreya Respublikasının Müdafiə Satınalma Proqramları İdarəsi (DAPA) xəbər yayıb. Bildirilir ki, qurum terrorla mübarizə əməliyyatları üçün nəzərdə tutulmuş unikal dördayaqlı robotun hazırlanmasını başa çatdırıb. Ölkənin silahlı qüvvələri artıq hərbi texnologiyalar sahəsində əsl inqilab ola biləcək bu innovativ işləmənin sınaqlarına başlayıb.**

“Hyundai Rotem” və “Rainbow Robotics” şirkətlərinin birgə səyləri ilə cəmi iki il ərzində yaradılan robot-it vacib xüsusiyyətlərə malikdir. O, saatda dörd kilometrdən çox sürətlə hərəkət edə və 20 santimetrdən hündür şaquli maneələri aşa bilir. Gündüz və gecə görüntüsü kameraları ilə təchiz edilmiş robot ən çətin şəraitdə müşahidə və kəşfiyyat idealdır. Bundan başqa robot-it döyüş tapşırıqlarını yerinə yetirmək qabiliyyətinə malikdir. Lazım gəldikdə onu məsafədən idarə olunan odlu silahla təchiz etmək olar ki, bu da onu potensial terrorçular üçün qorxunc rəqibə çevirir. Robot şəxsi heyət cəlb edilməzdən əvvəl binalarda təhlükələri aşkar edə və cinayətkarların hərəkətlərinə həm öldürücü, həm də qeyri-öldürücü silahdan istifadə etməklə operativ reaksiya verə bilir.

İnnovativ texnologiyanın sınaqları altı ay davam edəcək, bundan sonra hərbiçilər onun istifadəsi barədə yekun qərar qəbul edəcəklər. Ordu diviziyalarından biri də robotu hərbi qulluqçularla birlikdə axtarış və kəşfiyyat əməliyyatlarının aparılması eksperimentində istifadə edəcək. Robot-itlər və ya kvadrupedlər kimi tanınan dördayaqlı robotlar bütün dünyada ordularda, polis və xilasetmə xidmətlərində fəal şəkildə tətbiq olunur. Bu sahədə lider ABŞ-ın “Boston Dynamics” şirkəti hesab olunur, onun əsasən Çində çoxlu rəqibləri var.

## İki ay öncə evlənən 91 yaşlı milyonçu öldü

**Avstriyalı iş adamı Riçard Luqner 91 yaşında Vyanadakı malikanəsində vəfat edib. Tikinti maqnatı altı dəfə evlənib. Onun sonuncu toyu iyun ayında baş tutub. Luqner 42 yaşlı xanımla ailə qurub. Sahibkar Avstriya prezident seçkisində iki dəfə müstəqil namizəd kimi iştirak edib (1998 və 2016-cı illərdə). O, ilk cəhdində 10 faizindən bir qədər az səs toplayaraq beş namizəd arasında dördüncü olub. İkinci cəhdində isə Luqner cəmi 2.26% səs qazanıb.**

Daha sonra o, parlament seçkisində yarışıb, yalnız 1.02% səs toplayaraq Avstriya Milli Assambleyasında yer qazana bilməyib. Tikinti maqnatının dörd övladı var. Onun böyük oğlu 61 yaşındadır. Luqnerin sərvəti 200 milyon dollar dəyərində qiymətləndirilir.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor:
Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri,
R.Rüstəmov küçəsi
2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib,
“Son dakika” MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.